## Tarixi imkan yaranıb

### Ərdoğan: Azərbaycan-Ermənistan danışıqlarının sülh sazişi ilə nəticələnməsini arzu edirik



**”Qarabağın işğaldan azad edilməsi nəticəsində yaranan tarixi imkanın Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması ilə nəticələnməsini arzu edirik”.**

”Report” xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada keçirilən 15-ci Səfirlər Konfransında çıxışında deyib. O, Türkiyənin digər regional proseslərə müsbət təsir göstərməyə davam edəcəyini söyləyib.

Ərdoğan qeyd edib ki, Türkiyə üçün Suriya ilə yanaşı, İraqın da ərazi bütövlüyü və suverenliyi vacibdir.

”Qəzzadakı qan dəryasının artıq bitməsini istəyirik. Bunun üçün hər şey etməyə hazırıq”, - Türkiyə lideri əlavə edib.




## Oğuz sakini meşədə üzərinə ağac aşması nəticəsində ölüb

**Oğuzda 35 yaşlı kişi bədbəxt hadisə nəticəsində ölüb.**

Hadisə günorta saatlarında rayonun Xalxal kəndində baş verib. İlkin məlumata görə, meşə massivində rayon sakini 35 yaşlı Elvin Cəfərovun üzərinə ağac aşıb. O, aldığı xəsarətlərdən hadisə yerində ölüb.(apa)

№ 227 (6228) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 dekabr 2024-cü il (çərşənbə)



© picture-alliance/dpa/U. Zucchi

## Rəsmi Bakı iş aparır

### Suriyada Azərbaycan vətəndaşlarının sayı və yeri müəyyənləşdirilir

**Azərbaycan Respublikasının Suriyada səfirliyinin mövcud olmamasına baxmayaraq, Suriyada Azərbaycan vətəndaşlarının sayının və yerinin müəyyən edilməsi istiqamətində iş aparılır.**

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Suriyada son vəziyyətlə bağlı bəyanatında deyilir.

Bildirilib ki, Azərbaycan Respublikası həmçinin 2020-ci ildən başlayaraq Türkiyə Respublikasının ərazisi vasitəsilə həyata keçirilməkdə olan vətəndaşlarımızın Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyasıyası işini davam etdirəcək.



## Prezident İlham Əliyev Rəcəb Təyyib Ərdoğana zəng edib

### Azərbaycan Türkiyə ilə birlikdə Suriyanın humanitar problemlərinin aradan qaldırılmasına dəstək verməyə hazırdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğana zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar. Dövlətimizin başçısı Prezident Rəcəb Təyyib Ərdoğan və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniştərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb.

(səh.2)

## Ermənistanın konstitusiyasındakı ərazi iddiaları sülhə əsas maneədir

### Digər bir problem isə müxalifətin mövqeyidir



**Dekabrın 10-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə (BMTM) ”Azərbaycan ilə Ermənistan arasında sülh sazişinə başlıca maneə” adlı beynəlxalq konfrans keçirilib.**

Konfransda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın Ermənistanla sülhün əldə edilməsində maraqlı olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan 2020-ci ildən əvvəl də sülhün əldə edilməsi üçün çalışıb. ”Bu problemin kökü 100 illər əvvələ dayanır.

(səh.2)

# Ermənilər Əsədin simasında sadiq dostlarını itirdilər

### Əsəd sülaləsi orada yaşayan ermənilərə xeyli imtiyazlar vermişdi




**Ermənistan Suriya dinamikasını xüsusi narahatlıqla izləyir. Bunun üçün bir neçə vacib səbəb var. Hələ Suriyada vətəndaş müharibəsinin ilk illərində Ermənistan xeyli sayda əsasən Hələbdən olan erməni qaçqını qəbul etmişdi.**

Müxtəlif hesablamalara görə, onların sayı 17-20 min nəfər idi. Digər yandan Qarabağda məğlubiyyət və bu bölgənin itirilməsi Zəngəzur dəhlizi ətrafında gedən müzakirələrlə birləşəndə neqativ təəssüratı dərinləşdirir. Türkiyənin Yaxın Şərqdə güclənməsi də İrəvanda əlavə risk kimi qəbul edilir. ”Ermənistanın problemləri bizə yad deyil və biz Ermənistanın yanındayıq” - bunu Suriyanın sabiq Prezidenti Bəşər Əsəd ötən ilin noyabrında Dəməşqdə qəbul etdiyi Ermənistan parlamentinin vitse-spikeri Akop Arşakyana söyləmişdi. Ermənilər Əsəd rejiminə sıx bağlıdırlar. Suriyada yaşayan ermənilər Əsədin ordusunda xidmət keçirlər.

(səh.3)

# Türkiyə coğrafi üstünlük qazandı

### Ankara Suriya masasında aparılacaq mümkün danışıqlarda əlini gücləndirdi



**Türkiyə xarici işlər naziri Hakan Fidan BMT Baş katibi Antonio Quterreşlə danışıb. Telefon danışığı zamanı Suriya və regiondakı son proseslər müzakirə edilib. H.Fidan Türkiyənin Dəməşqdəki səfirliyinin açılması üçün lazım olan şərtlərə baxacaqlarını bildirib.**

Bundan başqa, Suriyada nizamlı siyasi keçidin təmin edilməsi, humanitar yardımların çatdırılması və Suriyanın yenidən qurulması üçün BMT başda olmaqla, beynəlxalq ictimaiyyətin atacağı addımlar barədə fikir mübadiləsinin aparıldığı da qeyd edilib.

(səh.4)



## Atəş tapşırıqları dəqiq oldu

### Komando bölmələrinin döyüş hazırlığı yüksək səviyyədə saxlanılır

**2024-cü ilin hazırlıq planına əsasən, komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, təlimin ssenarisinə uyğun olaraq, şərti düşmən mövqelərinə qəfil hücum və mövqelərin tutulması üzrə tapşırıqlar yerinə yetirilib. Ələ keçiriləcək mövqelərin əraziləri taktiki və vizual olaraq qiymətləndirilib, daha sonra minaatanların atəş dəstəyi ilə qəfil hücum icra edilib.

Keçirilən taktiki-xüsusi təlimdə yüksək peşəkarlıq nümayiş etdirən komandolar atəş tapşırıqlarını dəqiqliklə yerinə yetiriblər.

## Riskləri də var

### Özəl pensiya fondunun etibarlılığı çox önəmlidir

**Azərbaycanda özəl pensiya fondlarının yaradılmasına başlanılacaq. Bu barədə Dövlət Sosial Müdafiə Fondundan bildirilib.**



Qeyd edilib ki, ”Qeyri-dövlət pensiya fondları haqqında” qanun layihəsi hazırlanıb və razılaşdırılması üçün aidiyyəti qurumlara təqdim olunub. Müvafiq qurumlarla müzakirələrin nəticəsində özəl pensiya fondlarının fəaliyyətinin hüquqi, iqtisadi və maliyyə əsaslarının formalaşdırılması, həmin fondların fəaliyyətinə nəzarət mexanizmlərinin müəyyənləşdirilməsi məqsədilə layihənin təkmilləşdirilməsi üçün aidiyyəti qurumların nümayəndələri ilə birlikdə iş aparılır.

(səh.2)

## Cərimələr gəlir...

### Avtomobilinizi təmiz saxlayın!



**Dövlət qeydiyyat nişanlarını təmiz saxlamayan sürücülər cərimələnəcək. ”Report” xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin dövlət qeydiyyat nişanları ilə bağlı sürücülərə müraciətində bildirilib.**

Qeyd olunub ki, qanunvericiliyə əsasən hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanlarının aydın görünməsi üçün onun təmiz saxlanılması təmin edilməlidir. Bu vəzifənin yerinə yetirilməməsi avtomobilin istismarı qaydalarının pozulması hesab edilir və inzibati məsuliyyət yaradır

(səh.5)



## İran Cənubi Qafqazda kompromisə hazırlaşır

Azərbaycan strateji müttəfiqi Türkiyə ilə dəyişən geosiyasi mənzərədən istifadə edərək İranın zəifləmiş anını seçib maraqları naminə yeni reallıqlar yarada bilər

(səh.3)



## Üç gündən sonra Gürcüstanda yeni qarşıdurma gözlənilir

Azərbaycan üçün önəmli olan Gürcüstanda sabitliyin bərqərar olmasıdır, Bakı qonşu ölkədə xaosun davamını istəmir

(səh.4)




# Prezident İlham Əliyev Rəcəb Təyyib Ərdoğana zəng edib

## Azərbaycan Türkiyə ilə birlikdə Suriyanın humanitar problemlərinin aradan qaldırılmasına dəstək verməyə hazırdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğana zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar.

Dövlətimizin başçısı Prezident Rəcəb Təyyib Ərdoğan və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniştərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb.

Prezident Rəcəb Təyyib Ərdoğan öz növbəsində COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub.

Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər.

Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident Rəcəb Təyyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib.

Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Ermənistanın konstitusiyasındakı ərazi iddiaları sülhə əsas maneədir

## Digər bir problem isə müxalifətin mövqeyidir



**Dekabrın 10-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə (BMTM) ”Azərbaycan ilə Ermənistan arasında sülh sazişinə başlıca maneə” adlı beynəlxalq konfrans keçirilib.**

Azərtac xəbər verir ki, konfransda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın Ermənistanla sülhün əldə edilməsində maraqlı olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan 2020-ci ildən əvvəl də sülhün əldə edilməsi üçün çalışıb. ”Bu problemin kökü 100 illər əvvələ dayanır. 2020-ci və 2023-cü illərdə Ermənistanın işğalı altında olan torpaqların azad edilməsindən sonra sülh üçün imkanlar yaranıb. Lakin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi ilə bağlı Ermənistanın mövqeyi qeyri-müəyyən olaraq qalır. Ermənistanın ali qanunu olan Konstitusiyada, o cümlədən digər qanunvericilik aktlarında Azərbaycana qarşı ərazi iddiaları qalmaqdadır”.

**Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizin Ermənistana sülh sazişi barədə təklif göndərdiyini diqqətə çatdırıb.**

Qeyd edib ki, qələbə qazanan ölkənin məğlub tərəfə sülh təklifi etməsi az hallarda baş verən prosesdir. O bildirib ki, Ermənistanla sülh sazişi barədə ABŞ-da, Rusiyada və Qazaxıstanda müzakirələr aparılıb.

*Sülhün əldə edilməsindəki maneələrdən danışan E.Məmmədov ölkəmizin Ermənistanın konstitusiyasındakı ərazi iddiaları sülhə əsas maneədir. Digər bir problem isə müxalifətin mövqeyidir.*

”Azərbaycan torpağı olan Qarabağın Ermənistanın bir hissəsi adlandırılması onların milli ideologiyasıdır, halbuki Ermənistan indiyədək öz sərhədlərini müəyyənləşdirməyib. Ermənistanın davranışları Alma-Ata Bəyannaməsinə ziddir. Bu ölkə öz Konstitusiyasında dəyişiklik etməməklə bərabər, reallıqları da təhrif edir. Müzakirələrdə Qarabağın Azərbaycanın bir hissəsi olması barədə suallara Ermənistan tərəfi cavab verə bilmir. Çünki ölkəmizə qarşı ərazi iddiaları onların qanunvericiliyində mövcuddur”, - deyə nazir müavini vurğulayıb.

**ADA Universitetinin Hüquq fakültəsinin dekan müavini Cavid Qədirov Ermənistanın delimitasiya prosesində iştirakının öz Konstitusiyasına zidd olduğunu qeyd edərək deyib:**

”Delimitasiya əsas vermir ki, sülh müqaviləsi imzalansa Ermənistan buna əməl edəcək. Ermənistan Konstitusiyasının preambulasında ərazi iddiaları çox güman ki, ”fundamental qayda” kimi təsnif edilir. Sülh müqaviləsi isə öhdəliklərlə potensial ziddiyyətlər yaradır. Hazırda ərazi iddiaları çıxarılmayıb və Ermənistanın qanunvericiliyində mərkəz olaraq qalır”.

Sonra Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluğu ilə ”Ermənistan Konstitusiyası və qanunlarında sülh müqaviləsinə maneələr” mövzusunda birinci paneldə Milli Məclisin deputatı Erkin Qədirli, ADA Universitetinin Hüquq fakültəsinin dekan müavini Cavid Qədirov və erməni ekspert Onnik Krikoryanın (”Zoom” vasitəsilə) çıxışları dinlənilib.

ADA Universiteti nəzdində İnkişaf və Diplomatiya İnstitutunun siyasi tədqiqatlar, təhlil və nəşrlər üzrə direktoru Damian Krnjeviç Miskoviçin moderatorluğu ilə keçirilən ”Sülh naminə konstitusiyaların dəyişdirilməsi - beynəlxalq təcrübələr” adlı ikinci paneldə isə Böyük Britaniyanın Azərbaycandakı sabiq səfiri Ceyms Şarp, Türkiyənin Kadir Has Universitetinin prorektoru Mitat Çelikpala, siyasi elmlər üzrə professor və Avropa Şurası tərəfindən dəstəklənən İctimai siyasət məktəbinin (Tereza Ana) direktoru Zidas Daskalovski Avropa təcrübələrini, xüsusilə İrlandiyanın və Şimali Makedoniyanın nümunəsindəki presedentləri nəzərdən keçiriblər.

# Suriyadakı proseslər İrana olan cüzi inamı da qırdı

## İrəvan yaxşı başa düşür ki, İranın Ermənistan sevgisinin kökündə gizli planları dayanır

**”İranın xarici işlər naziri hər şeyi bildiklərini açıqladı və İranın Ermənistandakı səfiri dedi ki, Ermənistana hücum olarsa, köməyə gələcəklər”. Bu sözləri Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan bildirib.**

O iddia edib ki, söhbət Zəngəzur dəhlizindən gedir: ”İnanıram ki, bu, Paşinyanın ideyasıdır. Yəni Paşinyan buranı türk-azərbaycanlı qardaşlarımızla bölüşmək qərarına gəlib. O, azərbaycanlıların burada yaşaması üçün danışıqlar aparır, ermənilərin getməsindən isə söhbət gedə bilməz, ona görə də Ermənistan hakimiyyətinin yerinə türk vassallarını görürük. İran varsa, hansısa təhlükəni zərərsizləşdirə bilərdik, ancaq indiki hökumət İranın müdaxiləsinə imkan verməyəcək”. Baqratyan deyib ki, azərbaycanlılar yalnız Zəngəzurla kifayətlənməyəcək, Bakının hədəfi Qərbi Azərbaycandır: ”Bu 2,8 milyon insan Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə danışacaq şəxslər seçməli və onlardan neçəsinin kəndə, neçəsinin şəhərə gələcəyinə qərar verilmədir.



**”İndi Ermənistan çıxılmaz vəziyyətdədir. Ermənistan Türkiyəyə daha çox etibar edir, nəinki İran və Rusiyaya...”**

Yəni (Azərbaycan lideri) demir ki, sizi işğal edəcəyəm, deyir ki, gəlib orada yaşayacağıq. Ermənistan hökuməti də bunun tərəfdarıdır”.

**Politoloq Azər Qasımov ”Şərq”ə qeyd edib ki, İranın Azərbaycana qarşı düşmən mövqeyini imkan düşdükcə xatırlatması onu göstərir ki, fars rejimi Azərbaycan adlı dövlətin varlığından narahatdır. Ekspertə görə, Azərbaycan dövlətinin varlığını öz təhlükəsizliyinə təhlükə hesab edir:**

”Yoxsa müsəlman ölkəsi niyə Ermənistana görə Azərbaycana qarşı müharibədə iştirakdan danışsın? İran təbii ki, ancaq danışmaqla məşğuldur. Azərbaycana qarşı müharibəyə qoşulmaq İranın gücündə olan iş deyil. İranın hansı gücə sahib olduğunu Suriyada gördük. İran Azərbaycan üçün heç vaxt dost ölkə olmayıb, indi də belədir. Ermənistan isə İranın avantürasına aldanaraq bir daha Azərbaycanla müharibəyə girişməz. İlk növbədə ona görə ki, Ermənistan öz gücünə bələddir. Azərbaycanın gücünə bələddir”.

**Siyasi şərhçi qeyd edib ki, Suriyadakı proseslər Ermənistanın İrana olan cüzi inamını da qırdı:**

”Ermənistan yaxşı başa düşür ki, İranın Ermənistan sevgisinin kökündə gizli planları dayanır. İran Ermənistan ərazisini öz tarixi əraziləri hesab edir. İndi onu açıq işğal edə bilmir. Ona görə də sakitliklə ekspansiya etmək istəyir. Eyni fikirlərin Rusiyada da olduğu ermənilərə bəllidir. Ermənistan çıxılmaz vəziyyətdədir. Ermənistan Türkiyəyə daha çox etibar edir, nəinki İran və Rusiyaya. Ermənistanın son ümidi Qərbədir. Ancaq Qərbin regiona təsir imkanları məhduddur”.

İsmayıl

# Riskləri də var

## Özəl pensiya fondunun etibarlılığı çox önəmlidir



### Mexanizmin daha təkmil şəkildə hazırlanıb, təqdim edilməsi vacibdir

**Azərbaycanda özəl pensiya fondlarının yaradılmasına başlanılacaq. Bu barədə Dövlət Sosial Müdafiə Fondundan bildirilib.**

Qeyd edilib ki, ”Qeyri-dövlət pensiya fondları haqqında” qanun layihəsi hazırlanıb və razılaşdırılması üçün aidiyyəti qurumlara təqdim olunub.

Müvafiq qurumlarla müzakirələrin nəticəsində özəl pensiya fondlarının fəaliyyətinin hüquqi, iqtisadi və maliyyə əsaslarının formalaşdırılması, həmin fondların fəaliyyətinə nəzarət mexanizmlərinin müəyyənləşdirilməsi məqsədilə layihənin təkmilləşdirilməsi üçün aidiyyəti qurumların nümayəndələri ilə birlikdə iş aparılır.

Məlumatda bildirilib ki, özəl pensiya sisteminin 2026-cı ilin əvvəlindən fəaliyyətə başlayacağı gözlənilir.

Vətəndaşların pensiya kapitalının bir hissəsi özəl pensiya fondlarına yönəltmə imkanı əldə edəcək. Vətəndaş 50-55 yaşında toplanan pensiya kapitalını birbaşa götürərək biznes və ya hansısa təsərrüfat yarada, ev ala və digər məqsədlər üçün istifadə edə biləcək. Pensiya kapitalının DSMF-də qalan hissəsindən isə təqaüd almaqda davam edəcək. Birbaşa götürüləcək pensiya ödənişinin 50-70 faiz civarında ola biləcəyi bildirilir. Bununla belə, vətəndaşın bu sistemə qoşula biləcəyi və birbaşa pensiya məbləğindən istifadə edə biləcəyi yaş, o cümlədən ödəniləcək birbaşa pensiya məbləği və bəzi digər məqamlar hələlik müzakirə predmetidir.

Qeyd edilib ki, burada açıq qalan məsələlərdən biri əhalinin böyük qisminin minimum əməkhaqqı müqabilində pensiya kapitalının daha aşağı olmasıdır. Bu isə ancaq onların minimal pensiya məbləğini formalaşdırmağa kifayət edir.

Müzakirə predmeti olan məsələlərdən biri isə özəl pensiya sisteminin özəl pensiya fondu və ya həyat sığorta şirkətləri vasitəsilə həyata keçiriləcəyidir. Bildirilib ki, özəl pensiya sisteminin həyat sığorta şirkətləri vasitəsilə həyata keçirilməsi və sığorta bazarının inkişafı üçün yeni təkan ola bilər. Sığorta bazarı hər il minimum 400 milyon manat civarında arta bilər. Bu isə sığorta bazarının Mərkəzi Bankın 2028-ci ilə qədər ümumdaxili məhsulun 3 faizi civarına çatdırılması ilə bağlı hədəfinə uyğundur.

**Özəl pensiya fondlarının yaradılmasının vətəndaşlar üçün əhəmiyyətinə toxunan Milli Məclisin deputatı Vüqar Bayramov ”Şərq”ə bildirib ki, əksər inkişaf etmiş dövlətlərdə vətəndaşlar özəl pensiya fondlarından çox sıx şəkildə istifadə edirlər:**

”Pensiya təminatının özəl fondlar vasitəsilə həyata keçirilməsi dünyada geniş yayılan bir praktikadır. Hazırda Almaniya, Böyük Britaniya, İrlandiya, Türkiyə və başqa ölkələrdə belə fondlar fəaliyyət göstərir.

Özəl pensiya fondu imkan verir ki, vətəndaşlar pensiya yaşına çatdıqda yalnız dövlətdən deyil, özəl fonddan da pensiya ala bilsin. Bu da, təbii ki, pensiya məbləğinin artmasına gətirib çıxarır. Bu kontekstdən, oxşar praktikanın Azərbaycanda tətbiq edilməsi məqsədəuyğundur.

Özəl pensiya fondu yaradılarsa, vətəndaş pensiyaya çıxan zaman əgər onun pensiya məbləği 500 manatdırsa, özəl pensiya fonduna ödədiyi ödənişlər nəticəsində əlavə olaraq, məsələn, 300 manat almaq imkanı qazanacaq. Təbii ki, özəl fonddan ödənilən pensiya məbləği birbaşa yığımlardan asılı olacaq. Bu zaman daha çox yığım daha çox pensiya məbləği demək olacaq”.

**Deputatın sözlərinə görə, bununla yanaşı, özəl pensiya fondunun etibarlılığı da çox önəmlidir:**

”Çünki belə pensiya fondları yaranarsa, vəsaitlər manatla yığılacaq və onun idarə edilməsi həyata keçiriləcək. Ona görə də burada ilkin kapitalın formalaşdırılması, etibarlılığın artırılması önəm daşıyır. Bu baxımdan, özəl pensiya fondları yaradıldıqdan sonra orada yığılan vəsaitlərin indeksasiyasının həyata keçirilməsi və valyuta risklərinin sığortalanması məqsədəuyğun olardı. Ona görə də mexanizmin daha təkmil şəkildə hazırlanıb, təqdim edilməsi vacibdir”.

Şəymən Bayramova

# Dəməşqdə qazanıb, Tbilisidə və İrəvanda itirmək olmaz

## Azərbaycan və Türkiyənin yardımı ilə türkmanlar dövlət idarəçiliyinin bütün qollarında təmsil olunmalıdır



**”Beynəlxalq siyasi gündəliyi izləyərkən, bir-birini sürətlə əvəzləyən qlobal toqquşmaların coğrafiyasının genişləndiyini, dünyanın yenidən bölüşdürülməsinin həlledici mərhələyə daxil olduğunu görürük.**

3 ilə yaxındır ki, davam edən Rusiya-Ukrayna müharibəsində orta mənzilli strateji silahların işə salındığı bir vaxtda Qəzzadan Livana, daha sonra Suriyaya yayılan savaş, nəhayət, hakimiyyət dəyişikliyinə səbəb oldu”.

**Bu barədə millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin sədri Zahid Oruc deyib. Deputat bildirib ki, qonşu Gürcüstanda parlament seçkilərindən sonra hakimiyyəti zorla dəyişmək istəyən Qərb dövlətləri küçə və meydan döyüşlərindən sonra silahlı toqquşmalara zəmin hazırlayır:**

”Son günlər NATO Baş katibi Rutte gürcü hakimiyyətini ordunun müdaxiləsi ilə şantaj etdi. ABŞ, Avropa Birliyi ”qızılgül inqilabı”ndan sonra Gürcüstana sahiblik üçün xərclədikləri 20 milyard dolların hesabını tələb edir, hakimiyyətin bütün qollarındakı təsir agentlərini üsyana, siyasi itaətsizliyə qaldırırlar. Bəli, Gürcüstanda gedən geosiyasi mübarizə yalnız bir ölkə deyil, Qafqazların elə keçirilməsi uğrundadır. Unutmayaq ki, xarici ticarətimizin 14 milyard dollardan çoxu Tbilisi üzərindən aparılır. Bakı-Supsadan Cənub Qaz dəhlizinə qədər strateji layihələri, 300 mindən çox azərbaycanlının taleyini, 4 milyard dollardan çox sərmayəmizi, Türkiyə-Gürcüstan-Azərbaycan üçlüyünü nəzərə aldıqda geosiyasi döyüşlərin Bakı və Ankaranın birgə maraqlarına zərbə vurduğunu demək olar. Göründüyü kimi, Qarabağ Zəfəri ilə təhlükəsizliyini və beynəlxalq mövqeyini gücləndirən Azərbaycanın əhatə olunduğu regionda qeyri-sabitlikdir, vətəndaş toqquşmaları və silahlı qarşıdurmalardır. Xalqımız uzun illər geosiyasi müharibələrdən əziyyət çəkdiyi üçün qazandığı tarixi qələbənin, Böyük Qayıdışın və Yeni Vətən quruculuğunun qədrini bilir. Yerləşdiyimiz bölgədə təhlükələrdən qorunmağın yalnız bir alternativsiz yolu var”.

**Parlament üzvü vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev beynəlmiləl toqquşmaların poliqonuna çevrilməmək üçün ölkəmizi nə Qərbin, nə də qonşuların forpostuna çevirib:**

”Brüssel və ya Strasburqdan, yaxud şimal və cənubdan gələn birtərəfli əmrlərdən qorunan müstəqil dövlət qurub, hakimiyyəti zorla dəyişmək planlarını iflasa uğradıb. Dəməşqdən sonra başqa ərəb dövlətlərində də Türkiyəyönümlü hakimiyyətlər qurula bilər. Lakin Yaxın Şərqdə qalib gəlib Cənubi Qafqazı əldən vermək olmaz. Xalqın iradəsi ilə Suriyada rejimi dəyişməyə beynəlxalq hüquq çərçivəsində kömək edən qardaş ölkə üsyanın ilk olaraq başlandığı türkmanların-azərbaycanlıların yaşadığı Hələbdə olduğu kimi Gürcüstanda da yüz minlərlə soydaşımızın mənafelərinin qorunmasında Azərbaycan lideri İlham Əliyevin strategiyası ilə hərəkət edəcəyinə, Dəməşqdə qazanıb, Tbilisidə və İrəvanda itirməyəcəyinə inanırıq. Suriyanın bütövlüyünü təmin etmək mümkün olsa, Azərbaycan və Türkiyənin yardımı ilə türkmanlar dövlət idarəçiliyinin bütün qollarında təmsil olunmalıdır. Daha sonra Zəngəzur dəhlizinin açılması, Naxçıvanın Bakı ilə quru yollarla birləşməsi Gürcüstan və Ermənistanı türk dünyasına qarşı çevirmək planlarına zərbə vuracaq, Türkiyə və Azərbaycanın Yaxın Şərqdən Cənubi Qafqaza qədər böyük regionda növbəti qələbəsi olacaqdır”.

İsmayıl

# Ermənilər Əsədin simasında sadiq dostlarını itirdilər

## Əsəd sülaləsi orada yaşayan ermənilərə xeyli imtiyazlar vermişdi

**Ermənistan Suriya dinamikasını xüsusi narahatlıqla izləyir. Bunun üçün bir neçə vacib səbəb var. Hələ Suriyada vətəndaş müharibəsinin ilk illərində Ermənistan xeyli sayda əsasən Hələbdən olan erməni qaçqını qəbul etmişdi.**



Ata-bala hakimiyyətinin Türkiyə ilə də münasibətləri normal olmayıb

Müxtəlif hesablamalara görə, onların sayı 17-20 min nəfər idi. Digər yandan Qarabağda məğlubiyyət və bu bölgənin itirilməsi Zəngəzur dəhlizi ətrafında gedən müzakirələrlə birləşəndə neqativ təəssüratı dərinləşdirir. Türkiyənin Yaxın Şərqdə güclənməsi də İrəvanda əlavə risk kimi qəbul edilir. "Ermənistanın problemləri bizə yad deyil və biz Ermənistanın yanındayıq" - bunu Suriyanın sabiq Prezidenti Bəşər Əsəd ötən ilin noyabrında Dəməşqdə qəbul etdiyi Ermənistan parlamentinin vitse-spikeri Akop Arşakyana söyləmişdi. Ermənilər Əsəd rejiminə sıx bağlıdırlar. Suriyada yaşayan ermənilər Əsədin ordusunda xidmət keçirlər. Rusiya Prezidenti Vladimir Putin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvlərindən Rusiya ilə birgə Suriyaya hərbçi göndərməyi xahiş etdikdə, KTMT ölkələrindən təkcə Ermənistan müsbət reaksiya verdi. Baş nazir Nikol Paşinyan Suriyaya heyət göndərdi. Bundan məmnun qalan Əsədin Ermənistana verdiyi dəstək İran amili ilə də bağlıdır. İranın dostları və tərəfdaşları avtomatik Əsədin də dostları və tərəfdaşları, düşmənləri isə onun da düşmənləri idi. Əsəd Azərbaycan-Türkiyə müttəfiqliyinə Tehranın prizmasından baxırdı. Ermənilər Əsədin simasında sadiq dostlarını itirdirlər. O baxımdan Suriyada Bəşər Əsəd rejiminin devrilməsi Ermənistanda isterikanı gücləndirdi. Əsəd rejiminin çökməsindən narahat olan erməni siyasi şərhçilər Əsədin devrilməsinin Ermənistan üçün acı nəticələrinin olacağını iddia edirlər. Bir çox erməni politoloq Əsəd rejiminin süqutundan əndişələndiklərini gizlətməyiblər. Erməni mediası və ekspertlər Əsədin getməsini Türkiyənin və dolayısı ilə Azərbaycanın bölgədə güclənməsi, yeni dünya nizamında möhkəm, etibarlı oyunçuya çevrilməsi kimi şərh edirlər, Zəngəzurun itirilməsindən danışırlar. Məsələn, politoloq Hrant Melik-Şahnazaryan bildirib ki, Türkiyə və Rusiya eyni məqsədi güdürlər: "Biri Osmanlı imperiyasını, digəri Rusiya imperiyasını bərpa etməyə çalışır. Hər ikisinin bu işdə müəyyən uğurları var". Onun fikrincə, "yaranan yeni dünya nizamı yeni güc balansını" nəzərdə tutduğu üçün Cənubi Qafqazın iki ölkəsi - Azərbaycan və Gürcüstan buna hazırlaşır: "Gürcüstan anladı ki, bu dəyişikliklər dövründə dəqiq seçim etməyi bacarmaq lazımdır. Və onlar Avropanın vədlərini Abxaziyanın geri qaytarılması perspektivinə tabe edərək, bu seçimi etdilər. Artıq İran qüvvələri Azərbaycanın Zəngəzuru işğal etməyə hazırlaşdığı barədə xəbərlər yayırlar. Amma biz heç nə hiss etmək istəmirik". Pan-Erməni Milli Dövlət Partiyasının bəyanatında qeyd olunub ki, Suriya Ermənistan üçün dost dövlət idi: "İndi Suriya faktiki olaraq getdi və işğal olundu, bölgədə növbəti hədəf Ermənistan, İran və Gürcüstandır". Qeyd edək ki, Bəşər Əsəd hər zaman Ermənistanı dəstəkləyib və qondarma "erməni soyqırımı"nı tanıyıb. Bəşər Əsədin devrilməsindən sonra Ermənistanda xüsusi panika başlayıb. Bu amilin İranı öz sərhədləri daxilinə çəkəcəyindən narahat olan erməni politoloq və siyasətçilər əsas dayaqlarından - Tehranın himayəsindən məhrum olacaqlarını düşünürlər.

**Siyasi şərhçi Əli Oruclu deyib ki, Bəşər Əsəd rejiminin süqutu təkcə Suriyada deyil, Yaxın Şərq regionunda yeni mənzərə yaratmaqdadır. Ekspertin sözlərinə görə, proses təkcə 53 illik Əsəd sülaləsinin çöküşü ilə yekunlaşmır, ümumilikdə diktatura rejimlərinə himayədarlıq edən Rusiya və İranın da ağır məğlubiyyətidir:**

"13 il vətəndaş müharibəsinin davam etməsi və Əsədin hakimiyyətdə qalması məhz Tehranla Moskvanın dəstəyi sayəsində mümkün olmuşdu. İranın Yaxın Şərq regionunda mövqelərini itirməsi və öz təhlükəsizliyi ilə bağlı qayğılarının artması İrəvanı əbəs yerə ciddi narahat etmir. Xüsusən, Suriya rejiminin çöküşü növbəti hədəfin İran olacağı ilə bağlı narahatlığı artırır. Erməni icmasının ən güclü olduğu ölkələrdən biri məhz Suriyadır. Əsəd sülaləsi orada yaşayan ermənilərə xeyli imtiyazlar vermişdi. Həmçinin ata-bala hakimiyyətinin Türkiyə ilə də münasibətləri normal olmayıb. Suriya PKK terrorçu başı A.Öcalana sığınacaq verən ölkələrin önündə olub. Zaman-zaman hər iki dövlət arasında fikir ayrılıqları və ixtilaflar yaşanıb. Ermənistan İrana və Suriyaya "düşmənimin düşməni mənim dostumdur" prinsipi ilə yanaşıb. Ermənistan Əsəd rejimi simasında belə bir dostunu itirmiş oldu. Suriyanın gələcəyi və yeni siyasi düzəni qurulmasında Ankaranın müstəsna rol oynayacağında ermənilər qorxuya düşüb. Suriyada vəziyyətin hələ bir müddət qeyri-müəyyən qalacağı orada yaşayan 100 min etnik ermənilərin gələcək taleyini də sual altına qoyur. Ola bilsin, Ermənistana erməni köçü də başlasın. Bu, indiki dönəmdə ciddi humanitar problemlərə yol aça bilər".

**Ə.Oruclu əlavə edib ki, İranın Yaxın Şərqdəki mövqelərini itirməsi Cənubi Qafqaza da təsirsiz ötüşməyəcək:**

"Təbii ki, İranın zəifləməsi Türkiyənin qlobal gücə çevrilməsi, həmçinin Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsi Ermənistan üçün ən acı reallıqlar deməkdir. Paşinyan hakimiyyəti Qərbdən, xüsusən də Fransadan himayədarlıq və təhlükəsizlik çətiri ilə bağlı vədlər alsa da, meydanda bunların keçərli olmadığını dərk etməkdədir. İrəvanın ən fəal dəstəkçisi olan İranın zəifləməsi Zəngəzur dəhlizinin açılmasına maneənin birinin aradan qalxması deməkdir. Dəhlizin açılmasında hələ az-çox müqavimət göstərən İran rejimidir. Bu rejim də artıq Suriya yolu ilə getməkdədir. Bütün baş verənləri lakonik olaraq ermənilərin qorxulu röyası adlandırsaq, yanılmarıq".

**İsmayıl**

# Bakının prinsipial şərtləri ortadadır

## İrəvan sülh prosesini yekunlaşdırmaq üçün çox zaman alır



**Sülhə nail olmaq üçün Ermənistan konstitusiyasında mütləq dəyişiklik edilməlidir. Bunu xarici işlər nazirinin müavini Elnur Məmmədov "Azərbaycanla Ermənistan arasında Sülh Razılaşmasının imzalanmasına əsas maneələr" adlı tədbirdə deyib.**

Nazir müavininin sözlərinə görə, Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhün əldə olunmasında iki əsas əngəl var. Onlardan biri Ermənistan konstitusiyasındadır. Elnur Məmmədov əlavə edib ki, "Qarabağ Ermənistanın bir hissəsidir" müddəası Ermənistan konstitusiyasında əsas kimi qəbul olunur: "2020-ci ildə ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan sülh təkliflərini ilk dəfə Ermənistana 2021-ci ildə edib. Müharibədə qələbə qazanan ölkə heç vaxt qarşı tərəfə sülh təklifi etmir, amma biz bunu etmişik. Biz sülhlə bağlı əsas prinsipləri hazırlamışıq. 2020-2022-ci illərdə biz Ermənistanın arzularının nə olduğunu bilmirdik. Bundan sonra biz ətraflı müzakirələr aparmışıq. Bu müzakirələr ABŞ, Rusiya və Qazaxıstanda aparılıb. Həmin müzakirələrdə sülh razılaşmasını tərtib etməyə çalışmışıq. Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhün əldə olunmasında iki əsas maneə var. Onlardan biri Ermənistan konstitusiyasındadır. Bu maneə Ermənistanın Müstəqillik aktında da öz əksini tapıb. "Qarabağ Ermənistanın bir hissəsidir" müddəası orada əsas kimi qəbul olunur".

Elnur Məmmədov vurğulayıb ki, 30 ildən çoxdur Ermənistan hökuməti hələ də öz sərhədlərini dəqiq olaraq müəyyən etməyib.

"Bizim sualımız odur ki, hazırda biz danışıq naminə danışıqlar aparırıq, ya yox?", - XİN rəsmisi qeyd edib.

Elnur Məmmədov onu da bildirib ki, Ermənistan konstitusiyasında sülhə mane olan müddəaların mövcudluğu qarşı tərəfin diqqətinə çatdırılıb: "Sülh müqaviləsi bağlandıqdan sonra Ermənistanın Parlamenti onunla bağlı qərar verməli və Konstitusiya Məhkəməsi onu təsdiqləməlidir".

### Ermənistan konstitusiyasında dəyişiklik etməsə, Cənubi Qafqaz regionunda sülh olmayacaq

Nazir müavini Azərbaycanla Ermənistanın yekun razılığa gələcəklərini və Cənubi Qafqazda sülhə nail olunacağına ümidini ifadə edib.

**Siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu "Şərq"ə deyib ki, Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra regionda sülh gündəliyinə başlayıb:**

"Biz Ermənistana sülhün imzalanması üçün şərtlərimizi də təqdim etdik. Bu gün sülhün şərtləri üzərində iş əsasında sənəd dövriyyəsi davam etməkdədir. Azərbaycan hər zaman çox dinamik şəkildə öz mövqeyini ifadə edir. Amma Ermənistan bu prosesdə də çox zaman alır. Eyni zamanda bütün vasitələrlə zamanı uzatmağa çalışır. Bakının prinsipial şərtləri var. Bunu Azərbaycan tərəfi ən ali səviyyədə bildirib. Ermənistan mütləq şəkildə öz konstitusiyasında dəyişiklik etməlidir. Bu ölkənin konstitusiyasının preambula hissəsində Azərbaycan ərazilərinə qarşı iddialar birbaşa yer alıb. Belə olan halda Azərbaycan Ermənistanla heç bir halda sülh sazişini imzalaya bilməz. Çünki Ermənistan konstitusiyasının 116-cı maddəsində göstərilir ki, Ermənistanın imzaladığı beynəlxalq sənəd ölkənin konstitusiyası ilə ziddiyyət təşkil edərsə, heç bir hüquqi qüvvəyə malik olmaz. Deməli, Ermənistan konstitusiyada dəyişiklik etmədən Azərbaycanla sülh müqaviləsi imzalamaq istəyirsə, yenə də gələcəkdə Azərbaycana qarşı çıxmaq üçün əsas saxlamağa cəhd edir. Azərbaycan bunu bildiyi üçün israrla konstitusiyada dəyişikliyin edilməsini tələb edir".

**Professorun sözlərinə görə, Ermənistan sülh ritorikasında səmimidirsə, Azərbaycana qarşı ərazi iddiaları yoxdursa, konstitusiyasında dəyişiklik etməlidir. Əks halda, bütövlükdə Cənubi Qafqaz regionunda sülh olmayacaq:**

"Çünki bir dövlətin qonşu dövlətə ərazi iddiaları ölkənin əsas qanununda ifadə olunubsa, bu, mütləq şəkildə münaqişə elementidir. Bu gün vəziyyət sakit olsa da, nisbi xarakter daşıyır. Ermənistan gələcəkdə ilk fürsətdə Azərbaycana qarşı çıxmağa cəhdlər edəcək. Eyni zamanda Ermənistan hərbi sahədə kənardan ciddi dəstəklənir. Fransa, ABŞ və digər ölkələr Cənubi Qafqaz regionunda yenidən gərginlik yaratmaq istəyirlər. Həmçinin Ermənistanı özlərinin geosiyasi mübarizələrinin aləti rolunda görürlər. Bu kontekstdə Ermənistan konstitusiyasında Azərbaycan ərazilərinə iddialar qalmaqda davam edərsə, bu, daha real olacaq. Azərbaycanın digər başlıca tələblərindən biri də ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu Azərbaycan və Ermənistanın müraciəti əsasında buraxılmalıdır. Faktiki olaraq belə bil qurum mövcud deyil. Yəni de-yure ATƏT-in Minsk qrupu var. Amma onun heç bir fəaliyyəti yoxdur. Bu qurumun fəaliyyəti münaqişəni tənzimləməkdən ibarət olmayıb. Sadəcə olaraq münaqişəni idarə etməklə Ermənistana zaman qazandırmaq məqsədi daşıyır. Ermənistan bu gün Minsk qrupunun buraxılmasını istəmir. Çünki İrəvan münaqişə vəziyyətinin aradan qalxması faktı ilə barışmaq istəmir. Həmçinin bunu Ermənistanın havadarları da istəmirlər. Çünki münaqişə amili Qərb dövlətlərinə imkan verirdi ki, Cənubi Qafqaza müdaxilə imkanlarını saxlasınlar. Ona görə də gərginlik elementlərini Ermənistanın vasitəsilə yaratmağa çalışırlar. Ermənistan da onlardan aldığı təlimatlar əsasında münaqişə vəziyyətinin aradan qalxması faktını qəbul etmək istəmir. ATƏT-in Minsk qrupu varsa, deməli, Cənubi Qafqaz regionunda Ermənistan üçün hələ də münaqişənin mövcudluğundan danışmaq üçün əsas var. Azərbaycan isə Minsk qrupunun mövcudluğuna heç bir əsas görmür. Görünən isə odur ki, Ermənistan nə konstitusiyada dəyişiklik etmək, nə də Minsk qrupunun buraxılmasını istəyir".

**Aynur Babazadə**



**İsrail tankları "bufer zona"nı keçib və Suriyanın cənubundakı Qatana qəsəbəsi yaxınlığına yerləşib. İsrail əsgərləri Dəməşqin kənarındakı bir neçə kəndə daxil olub.**

Baş nazir Netanyahu İsrailin Qolan təpələrində "əbədi olaraq" qalacağını bildirib. Qeyd edək ki, İsrail tanklarının girdiyi Qatana qəsəbəsi paytaxt Dəməşqin 21 km-də yerləşir. İsrail Dəməşqdə 8 dekabrdan bəri 250 hədəfə havadan zərbələr endirib. Hava zərbələrində Əsəd ordusuna aid hərbi bazalar, onlarla döyüş təyyarəsi, yer-hava raket sistemi, həmçinin silah istehsal yerləri və anbarlar hədəf alınıb. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller deyib ki, İsrailin Suriya ərazisinə girməsi müvəqqəti vəziyyətdir. Miller bildirib ki, hər bir ölkənin terror təşkilatlarına qarşı tədbir görmək hüququ var: "Suriya ordusu müzakirə mövzusu olan İsrail-Suriya "bufer zona"sı ətrafındakı mövqelərini tərk edib. Bu da İsraili və onun vətəndaşlarını potensial olaraq təhdid edən, terror təşkilatları tərəfindən doldurula biləcək bir boşluq yaratdı".

# Yaxın Şərqdə yeni nizam qurulur

## Rusiya Yaxın Şərqdən, Cənubi Qafqazdan və Şərqi Avropadan çıxarılır

**Siyasi şərhçi Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Suriyada Türkiyənin geosiyasi qələbə əldə etməsi, İsraili çətin vəziyyətlə üzləşdirdi. Ekspert vurğulayıb ki, İsrail Qolan təpələrini aşaraq vaxtı ilə Əsəd rejimi ilə imzalanmış və razılaşdırılmış "bufer zonaya" daxil olub:**

"İsrail hərbi təyyarələri Dəməşqdə hərbi hissələri raketlərlə hədəfə alıb. Məqsəd müxalifətin güclənməsinin qarşısını almaqdır. HTŞ və Azad Suriya Ordusu İsraildən Qolan təpələrindən çıxmağı tələb edir. İsrail "bufer zona"ya daxil olmasını müqavilənin qüvvədən düşməsi ilə əsaslandırır. Suriya müxalifəti də Əsəd getdiyi üçün və yeni nizama uyğun olaraq İsrailin Qolan təpələrindən çıxmasını tələb edir. Türkiyə İsrailə Fələstin dövlətini tanıması üçün təzyiqlər etməyə başlayacaq. Yaxın Şərqdə Əsəd rejimi süqut etdi. İran və Rusiya regiondan çıxdı. Bir müddətdən sonra Livanda "Hizbullah" da suqut edəcək. Sabitliyin təmini üçün Fələstin dövlətinin tanınması Ankara üçün strateji önəm kəsb edir. İsrailin Suriyada "Heyəti Təhrir-Şam" və Azad Suriya Ordusu ilə savaşmaq imkanları məhduddur. İsrailin Suriyada Türkiyə ilə qarşı-qarşıya gəlməsi strateji məğlubiyyətinə gətirib çıxara bilər. Qolan təpələrindən çıxmazsa, HTŞ-nin hücumuna məruz qalar. Yaxın Şərqdə yeni nizam qurulur. Dünyanın yeni siyasi nizamında Rusiya Yaxın Şərqdən, Cənubi Qafqazdan və Şərqi Avropadan çıxarılır".

> "Suriyada Türkiyənin geosiyasi qələbə əldə etməsi İsraili çətin vəziyyətlə üzləşdirdi"

**İsmayıl**

# İran Cənubi Qafqazda kompromisə hazırlaşır

## Azərbaycan strateji müttəfiqi Türkiyə ilə dəyişən geosiyasi mənzərədən istifadə edərək İranın zəifləmiş anını seçib maraqları naminə yeni reallıqlar yarada bilər



**"İran Cənubi Qafqazda itki verəcəyini hiss edərək, kompromisə hazırlaşır". Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib.**

O bildirib ki, İranın İsraillə kölgə döyüşləri, HƏMAS, "Hizbullah" üzərindən verdiyi itkilər, Suriyada mövqeyinin sarsılması onun Cənubi Qafqazdakı "qırmızı xətli" ambisiyalarına da sarsıdıcı zərbələr vurur: "İranın regional təsirləri, ambisiyaları üçün formalaşdırdığı təhlükəsizlik zolaqları və proksi strukturlar indi ən aşağı vəziyyətdədir, belə olan halda, İran öz baxışlarını dar bir cəbhəyə fokuslayır. İran daha uzunmüddətli perspektiv üçün Suriyada hakimiyyətin yenidən təşkilində iştiraka çalışacaq, yəqin ki, Livandakı "Hizbullah"a yardım rolu oynamış təchizat marşrutları ilə bağlı təminatlar qoparmağa həvəslənəcək.

Lakin bu, daha çətin görünür. Çünki İsrail Hələbi Dəməşqlə birləşdirən, Livan sərhədi boyunca uzanan şimal-cənub yolunda "Hizbullah"ın əsas təchizat yollarını pozmaq üçün nəzarəti ələ keçirir.

Beləliklə, İranın geosiyasi və regional riskləri onu "müttəfiqi" Rusiya ilə bərabər, rəqibləri ilə də konsensus axtarışına sövq edir".

**A.Kərimov hesab edir ki, Rusiya Cənubi Qafqazda İranı dəstəkləyəcək mövqe nümayiş etdirmədiyindən Moskva Tehranı "Qafqaz güzəşti"nin qaçılmaz olduğuna inandırmağa məcburdur:**

"İran həm daxili siyasətdəki hekayələri, həm də regional və beynəlxalq siyasətdəki korlanan izlər səbəbindən məcburi şəkildə Cənubi Qafqazda Azərbaycanın strateji maraqları ilə barışmağı seçə bilər.

Bununla da, İranın Qafanda açdığı konsulluq geosiyasi risklərdə sadəcə olaraq simvolikləşir və Tehranın Azərbaycanın Zəngəzur dəhlizi ilə əlaqədar prioritetlərinə qarşı gücü zəifləyir.

Beləliklə, İranın Cənubi Qafqazda əvvəlki illərdəki aktivliyi daha az əhatəli maraqlarla əvəzlənir.

Azərbaycan strateji müttəfiqi Türkiyə ilə dəyişən geosiyasi mənzərədən istifadə edərək İranın zəifləmiş anını seçib maraqları naminə yeni reallıqlar yarada bilər..."

**Şəymən**

# Növbəti seçkilər əvvəlkilərdən xeyli fərqlənəcək

## Bu dəfə bələdiyyə üzvü olmaq istəyən namizədlərin sayı xeyli çoxalacaq

**Bələdiyyə seçkilərində namizədlik üçün müraciət edənlərin sayı günün sonunadək artıq 2031-ə çatıb. Bu barədə Mərkəzi Seçki Komissiyasından məlumat verilib. Bildirilib ki, bu göstərici 86 seçki dairəsi üzrə 402 bələdiyyəni əhatə edir.**

**"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə söyləyib ki, növbəti bələdiyyə seçkiləri əvvəlkilərdən xeyli fərqlənəcək:**

"Çünki əvvəl 2736 və ya 1606 bələdiyyənin formalaşdırılması üçün səs verirdiksə, hazırda bələdiyyələrin sayını birləşdirmə yolu ilə 685-ə endirmişik. Yanvarın 29-dan sonra formalaşacaq bələdiyyələrin sayı 685 olacaq. Lakin bələdiyyələrin sayının azaldılması seçicilərin üzərinə də müəyyən məsuliyyət yükü qoyur. Sözügedən proses seçicini daha məsuliyyətli olmağa və işgüzar, xalqın problemlərinə operativ yanaşacaq namizədə səs verməyə sövq edəcək. Bu, nəticə etibarilə bələdiyyə sisteminin inkişafına söykənən addım olacaq. Həmçinin bələdiyyələrin sayının azalması namizədlərin sayının kifayət qədər olmasına gətirib çıxaracaq. Bununla yanaşı bir sıra qanunlarda dəyişikliklərin olması və bələdiyyənin fəaliyyətinə müsbət təsir edəcək addımların atılması səmərəliliyin artırılmasına öz töhfəsini verəcək. Hesab edirəm ki, bu dəfə seçkilərdə bələdiyyə üzvü olmaq istəyən namizədlərin sayı xeyli çoxalacaq".

**Şahanə Ziyad**

# Türkiyə coğrafi üstünlük qazandı

## Ankara Suriya masasında aparılacaq mümkün danışıqlarda əlini gücləndirdi




**"Münbiçin nəzarətə götürülməsi PYD/YPG ilə mübarizədə mühüm başlanğıcdır. Türkiyə daha güclü şəkildə əsas mərhələyə bundan sonra başlayır"**

**Türkiyə xarici işlər naziri Hakan Fidan BMT Baş katibi Antonio Quterreşlə danışıb. Telefon danışığı zamanı Suriya və regiondakı son proseslər müzakirə edilib. H.Fidan Türkiyənin Dəməşqdəki səfirliyinin açılması üçün lazım olan şərtlərə baxacaqlarını bildirib.**

Bundan başqa, Suriyada nizamlı siyasi keçidin təmin edilməsi, humanitar yardımların çatdırılması və Suriyanın yenidən qurulması üçün BMT başda olmaqla, beynəlxalq ictimaiyyətin atacağı addımlar barədə fikir mübadiləsinin aparıldığı da qeyd edilib. ABŞ Suriya mövzusunda Türkiyə ilə sıx təmasda olacağını açıqlayıb. ABŞ-nin BMT-dəki (BMT) daimi nümayəndəsinin müavini Robert Vud Türkiyə və ABŞ-nin müttəfiq olduğunu deyib. Amerikalı rəsmi bildirib ki, Türkiyə ilə təmaslar davam etdirilir: "Yaxın günlərdə, həftələrdə və aylarda da bu mövzu üzərində işləməyə davam edəcəyik. Çünki hamımız Suriyada işlərin hara gedəcəyini anlamağa çalışırıq". Vud Suriya xalqını təmsil edən və dəstəkləyə biləcək bir keçid prosesi üçün bütün tərəflərin birlikdə çalışmasının çox vacib olduğuna diqqət çəkib. Amerikalı nümayəndə, həmçinin Suriyada idarəetməni ələ keçirən səlahiyyətlilərin beynəlxalq ictimaiyyət tərəfindən yaxından izləndiyini də söyləyib. Türkiyə Xarici İşlər Nazirliyi İsrail ordusunun Suriyaya girməsinə də reaksiya verib. Qeyd edilib ki, Ankara İsrailin 1974-cü ildə imzalanmış Qüvvələrin Ayrılması Müqaviləsini pozaraq, Suriya ərazisinə daxil olmasını və sözügedən ölkənin ərazisində irəliləməsini şiddətlə qınayır: "Suriya xalqının uzun illərdir həsrətində olduğu sülh və sabitliyə nail olmaq imkanının ortaya çıxdığı bu həssas dövrdə İsrail yenidən işğalçı zehniyyətini nümayiş etdirir. Biz Suriyanın suverenliyi, siyasi birliyi və ərazi bütövlüyünü dəstəklədiyimizi qətiyyətlə təkrar edirik". Erməni politoloq Arman Abovyan da deyib ki, Suriya faktoru təkcə bu keçmiş dövlətin ərazisi ilə bitməyəcək və çox güman ki, tezliklə regionun xəritəsində çox ciddi dəyişikliklərin şahidi olacağıq: "Türkiyə Böyük Turan layihəsinin Yaxın Şərqi də əhatə edən hissəsini silah gücü ilə səmərəli şəkildə həyata keçirərək, bölgədəki fiziki varlığını əhəmiyyətli dərəcədə genişləndirdi. Bu da öz növbəsində Türkiyə-Azərbaycan tandeminin Ermənistanı daha da sıxışdırmaq və Mərkəzi Asiya istiqamətində qeyri-sabitlik yaratmaq cəhdlərinin aktivləşməsinə gətirib çıxaracaq".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Türkiyə PKK-nın PYD/YPG qanadına qarşı mübarizədə illərdir təmizləmək istədiyi Münbiçə Suriya Milli Ordusu üzərindən daxil oldu. Analitik qeyd edib ki, Münbiç 2016-cı ildə ABŞ-nin dəstəyi ilə PYD-nin nəzarətinə keçib:**

"Vaşinqton Ankaraya şəhərin təmizlənəcəyi vədini versə də, yerinə yetirmədi. Eyni vədi 2019-cu ildə Rusiya Türkiyəyə versə də, anlaşma kağız üzərində qaldı. Şəhərin nəzarətə götürülməsi Türkiyə üçün strateji qazanc deməkdir. Türkiyə Fəratın şərq sahilində möhkəmləndi. Suriya ərazisində Türkiyəyə mümkün hücumların qarşısını almaqda coğrafi üstünlük qazandı. PYD/YPG Fərat çayının qərb sahilində ciddi təsir itirdi və çayın şərqinə doğru sıxışdırıldı. Türkiyə üçün Suriyada və İraqda PKK/PYD/YPG ilə mübarizənin yeni mərhələsinin başlandığı görünür. Münbiçə nəzarət ABŞ-nin dəstəklədiyi bu qruplaşmaya qarşı əməliyyatlarda taktiki baxımdan üstünlük qazandırır. İraqdan Aralıq dənizinə qədər uzanan coğrafiyada planlaşdırılan "kürd dəhlizi" planı ciddi şəkildə əngəlləndi".

**A.Nərimanlı vurğulayıb ki, Türkiyə Suriyada keçirdiyi əməliyyatlarla bu planın qarşısını alsa da, 2017-ci ildən başlayaraq, ABŞ bu planın icrası üçün marşruta müəyyən dəyişiklik etmişdi:**

"Əsədin getməsi və Rusiya hərbi bazalarının çıxarılması gözləntisi bu marşrutu daha da aktuallaşdıra bilər. Lakin Münbiçin nəzarətə götürülməsi ilə bu marşrutun reallaşması imkanları da azaldıldı. Suriya masasında aparılacaq mümkün danışıqlarda əlini gücləndirdi. Hərçənd, Münbiçin nəzarətə götürülməsi PYD/YPG ilə mübarizədə mühüm başlanğıcdır. Türkiyə daha güclü şəkildə əsas mərhələyə bundan sonra başlayır".

**İsmayıl**

# Komanda vəzifəsini uğurla yerinə yetirdi

## Arzu Nağıyev COP29-dan danışdı, spiker təşəkkür etdi



**"COP29 tədbirində təhlükəsizlik məsələsi çox böyük əhəmiyyət kəsb edirdi".**

Bunu millət vəkili Arzu Nağıyev Milli Məclisin dünənki plenar iclasında deyib. Deputat bildirib ki, Azərbaycan COP29 kimi beynəlxalq səviyyəli daha bir möhtəşəm tədbirə ev sahibliyi etdi: "COP29-un işində 72 min nəfərdən artıq şəxsin qeydiyyatdan keçməsi, 80-dən çox ölkənin rəhbərlik səviyyəsində təmsil olunması bir daha göstərdi ki, tədbirin təşkilatçılığı ən yüksək səviyyədə idi. Belə bir böyük tədbirə ev sahibliyi etmək Azərbaycan dövlətinin, rəhbərinin düzgün qurduğu daxili və xarici siyasətin nəticəsi idi". Parlamentarinin sözlərinə görə, təhlükəsizlik məsələsi bir neçə aspekti əhatə edirdi: "Bunlar fiziki təhlükəsizlik, kibertəhlükəsizlik, sağlamlığın qorunması, keçirilə biləcək dinc aksiyalarda təhlükəsizlik tədbirləri, logistika və nəqliyyatdır. Tədbir vaxtı yüksək profilli şəxslər, o cümlədən dövlət və hökumət başçılarının qorunması, o cümlədən bütün iştirakçıların yoxlanılmasını, yerlərin təhlükəsizliyini, əsas obyektlərə və tədbirlərə girişi əhatə etdiyinə görə ən yüksək səviyyədə təşkil edildi Burada PTX, DTX, DİN, DSX, FHN, gömrük, bir sözlə, aidiyyəti olan bütün qurumlar öz işini yüksək səviyyədə qurdu. COP29 ərəfəsində və keçirilən vaxt tədbirlər və çıxışlar hakerlərin və kibercinayətkarların da diqqətini cəlb edirdi. Kiberhücumlardan qorunmaq, rabitələri və sistemləri qorumaq üçün xüsusi təhlükəsizlik protokolları yaradıldı və həyata keçirildi. COP29-un əsas və ehtiyat data mərkəzləri Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) Məlumat Mərkəzində yerləşdirildi. Tədbirlər keçirilən Olimpiya Stadionu ərazisində olan internet təminatı da XRİTDX-nin nəzarətində olan "AzStateNet" dövlət provayderinin kiberhücumlardan qorunan şəbəkəsi vasitəsilə reallaşdı. COP29 İT komandası qarşıya qoyulan vəzifəni uğurla yerinə yetirdi".

*"Hələ Milli Məclisdə bu məsələ ilə bağlı çıxış edən yox idi"*

**Deputat diqqət çəkib ki, pandemiya və ya epidemiyalar zamanı iştirakçıların sağlamlığı prioritet məsələyə çevrilir:**

"Xəstəlik testi, sağlamlıq qaydaları və səhiyyə xidmətlərinin əlçatanlığı daxil olmaqla sağlamlıq tədbirləri COP29-da öz həllini tapdı. İqlim dəyişikliyi ilə əlaqədar keçirilə biləcək dinc aksiyalara qarşı tədbirlər də əvvəlcədən ehtimal olunduğundan təhlükəsizlik xidməti, həmçinin, digər hüquq-mühafizə orqanlarının iştirakı da yüksək səviyyədə təmin olundu. Logistika və nəqliyyat: COP29-da təhlükəsizlik həm də təhlükəsiz nəqliyyat infrastrukturundan, iştirakçıların və işçilərin hərəkəti düzgün təşkilindən, habelə yaşayış yerlərində təhlükəsizlikdən asılıdır. Buna cavabdeh nəqliyyat strukturları da Metropoliten də daxil olmaqla, öz işlərini yüksək səviyyədə qura bildi. Bir sözlə, COP29-un təhlükəsizlik tədbirlərində Azərbaycan dövləti ev sahibi kimi bütün beynəlxalq standartlara uyğun olaraq təşkilatçılıq məsələsinin ən vacib elementindən olan təhlükəsizlik tədbirlərini yüksək səviyyədə həyata keçirdi. Bütün dünya etiraf etdi ki, biz COP29-u ən yüksək səviyyədə təşkil etdik və təbii olaraq, onu da göstərdik ki, cənab Prezident İlham Əliyevin Azərbaycan xalqı ilə birlikdə həyata keçirdiyi daxili və xarici siyasət müstəqil və davamlıdır".

Sədr Sahibə Qafarova Arzu Nağıyevə çıxışına görə təşəkkürünü bildirib: "Çox vacib məsələlərə toxundunuz. Hələ Milli Məclisdə bu məsələ ilə bağlı çıxış edən yox idi".

**İsmayıl**

# Üç gündən sonra Gürcüstanda yeni qarşıdurma gözlənilir

## Azərbaycan üçün önəmli olan Gürcüstanda sabitliyin bərqərar olmasıdır, Bakı qonşu ölkədə xaosun davamını istəmir

**Gürcüstanda hökumətin istefasını, yeni seçkilərin keçirilməsini və ölkənin Avropa inteqrasiyasına sadiqliyinin təsdiqlənməsini tələb edən etirazlar davam edir. Noyabrın 28-dən başlayan nümayişlər bir çox şəhərə yayılaraq geniş yayılmış narazılığı əks etdirir. Siyasi dəyişiklik tələbləri gücləndikcə yeni etirazların və qarşıdurmaların baş verməsi gözlənilir.**




Avropa İttifaqı, Baltikyanı ölkələr və ABŞ etirazçılara dəstək ifadə edərək Gürcüstanda demokratik hüquq və azadlıqların qorunmasının vacibliyini vurğulayıblar.

Qeyd edək ki, Gürcüstan hökuməti ölkədə fövqəladə vəziyyət və komendant saatı tətbiq etmək imkanını nəzərdən keçirir.

Bu barədə müxalif "Atavari Arx" telekanalı məlumat yayıb. Kanalın məlumatına görə, hakim "Gürcü Arzusu" Partiyası dekabrın 29-da Mixail Kavelaşvilini Gürcüstanın yeni prezidentini təyin etməyi planlaşdırır. Bundan sonra partiya fövqəladə vəziyyətin tərkib hissəsi kimi komendant saatı tətbiq etmək niyyətindədir.

Şübhəsiz ki, Gürcüstündə baş verən etirazlar elə seçkiöncəsi proseslərdən görünürdü. Əslində, gərginlik "Xarici agentlər haqqında" qanunun qəbulundan başladı və bu qanunun qəbul olmasına Qərb ölkələrindən etirazlar gəldi. Qərbin marağı Gürcüstana təsir edəcək imkanların əlindən çıxmamasıdır. Çünki Gürcüstan Qərbin Orta Asiya və Azərbaycanla bağlı planlarının, qeyri-hökumət təşkilatlarının maliyyələşdirilməsi üçün mərkəz kimi çıxış edirdi. Gürücstan kimi ölkələrdə təsirini saxlamaq üçün Qərb qeyri-hökumət təşkilatlarını, fondları və medianı maliyyələşdirməklə "paralel hökumət" formalaşdıra bilir. Qanunun qəbulu ilə bütün bunların qarşısı alındı.

Eyni zamanda Gürcüstanın yerləşdiyi mövqe də çox önəmlidir. Quru yol və Qara Dəniz vasitəsilə Çinin, Orta Asiya ölkələrinin və Azərbaycanın Avropaya çıxış qapısıdır. Bütün bunları nəzərə alanda Qərbin belə bir planları olacağı bəlli idi. Sadəcə olaraq Baş nazir İrakli Koxabidzenin "Gürücüstan Avropa İttifaqına üzvlüyü müzakirələrini 2028-ci ilə qədər dondurur" açıqlaması Qərbin təxribatına düşmək idi və bu, müxalif partiyalarına fürsət verdi ki, etirazlara başlasınlar.

**"Atlas" Araşdırmalar Fondunun rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında deyib ki, indiki proseslər fonunda Gürcüstanda iki yol var:**

"Etiraz aksiyaları getdikcə güclənəcək, müxalifət tərəfdarları artacaq və hökumət daxilində parçalanmalar olacaq. Bu zaman da hakim partiya güzəştə getməyə və yeni parlament seçkiləri təyin etməyə məcbur qalacaq. Proseslər bu istiqamətdə irəliləsə, "Gürcü Arzusu" Partiyasının məğlubiyyəti də qaçılmaz olacaq. İkinci variant isə tam əksinə, hakimiyyət etiraz aksiyalarını boğaraq nəzarəti ələ alacaq. Qeyd edim ki, hələlik baş verənlər bu istiqamətdə irəliləyir. Gürcüstan hökuməti yaxşı bilir ki, müxalifətin tələblərini yerinə yetirsə, hakimiyyəti itirəcəklər".

Üç gündən sonra Gürcüstanda yeni qarşıdurmanın yaranacağını vurğulayan politoloq 14 dekabra planlaşdırılan prezident seçkilərini xatırladıb: "Hazırkı Prezident Salome Zurabişvilinin kürsünü tərk etmək niyyətində olmadığını açıq şəkildə bəyan edib. Bütün bunlar da sekçi prosesinin qarşıdurmasız ötüşməyəcəyini göstərir. Sözsüz ki, biz qonşu dövlət olaraq Gürcüstanda sabitlik və təhlükəsizlikdə maraqlıyıq. Azərbaycan Qərb ölkələrindən fərqli olaraq Gürcüstanın daxili işlərinə qarışmamaqla, hakimiyyətlə müxalifət arasındakı mübarizədə tərəf tutmamaqla doğru strategiya aparır. Azərbaycan üçün önəmli olan Gürcüstanda sabitliyin bərqərar olmasıdır, Bakı qonşu ölkədə xaosun davamını istəmir. Xüsusən də, Gürcüstanda yaşayan yüzminlərlə azərbaycanlının təhlükəsizliyi də bizim üçün vacibdir. Gürcüstandakı xaosdan Qərbdəki qüvvələr öz məqsədləri üçün istifadə edirlər ki, bu, Cənubi Qafqaz üçün arzuolunmaz haldır.

Ümumiyyətlə, Gürcüstanda mübarizə aparan qüvvələr arasındakı prosesə qarışmaq düzgün deyil. Bu mübarizədə kimin üstünlük qazanacağı bəlli deyil. Azərbaycan Gürcüstanda istənilən hakimiyyətlə strateji tərəfdaşlığı davam etdirəcək. Gürcüstan Rusiya ilə yaxınlığı və ya Avropa İttifaqına inteqrasiyanı seçəcəksə, bu onun daxili işidir".

**E.Şahinoğlunun fikrincə, prezident seçkilərində hakim partiyanın dəstəklədiyi şəxs prezident seçilsə belə, ölkədə siyasi gərginik davam edəcək. Politoloq əlavə edib ki, hökumət etirazları polis gücünə yatırtsa belə, bu hələ ölkədə sabitliyin bərqərar olması demək deyil:**

"Faktiki olaraq Gürcüstan cəmiyyəti iki hissəyə parçalanıb. Gənclər Avropaya inteqrasiyanı, nisbətən orta və yaşlı nəsil isə indiki hökumətin Rusiya ilə münasibətləri bərpa etmək cəhdlərini dəstəkləyir. Zənnimcə, zaman-zaman bu parçalanmanın təsirləri özünü büruzə verəcək.

İndiki halda fövqəladə vəziyyət müvəqqəti də olsa, "Gürcü Arzusu" hökumətini qorumağa imkan versə də, mübarizə davam edəcək. İnsanlar küçələrə axın etməsə belə, ölkədəki fikir ayrılığı, ixtilaflar davam edəcək".

**Şəymən Bayramova**

# Vaşinqtonun Suriyada öz planları var

## Tramp hakimiyyəti dövründə ABŞ-nin bu bölgədə mövcudluğu daha da genişləndiriləcək

**ABŞ Suriyadakı hərbi mövcudluğunu genişləndirməyi planlaşdırmır. Bu barədə Pentaqon sözçüsünün müavini Sabrina Sinq brifinqdə bildirib.**



"Ali baş komandanın etdiyi və ya tələb edilən hər hansı dəyişiklik yoxdur", - Sinq qeyd edib.

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken deyib ki, Prezident Bəşər Əsədin devrilməsindən sonra ABŞ-nin Suriyada aydın və uzunmüddətli maraqları var idi. Onun sözlərinə görə, Vaşinqton Suriyada qalan hər hansı kütləvi qırğın silahlarının və ya onun komponentlərinin yanlış əllərə düşməməsini istəyir. Buna görə də Suriyada əsas maraq İslam Dövləti terrorçularının meydana çıxmasının qarşısını almaqdır.

**Politoloq Fuad Abbasov "Şərq"ə deyib ki, ABŞ-də Bayden administrasiyası başqa, yanvar ayından etibarən fəaliyyətə başlayacaq Tramp isə başqa bir qərar verə bilər:**

"Trampın İsrailə olan münasibətindən açıq şəkildə görə bilərik ki, Tramp hakimiyyəti İsrail hökuməti ilə çox bağlıdır. Xatırlayırsınızsa, Amerika səfirliyinin Qüdsdən köçürülməsi ilə bağlı uzun illər boyunca heç bir Prezident qərar vermədiyi halda Tramp bu addımı atmışdı. Yəni Bayden hökuməti açıqlama verə bilər ki, Suriyadakı mövcudluğumuzu genişləndirməyəcəyik. Amma Bayden İsrailin HƏMAS ilə mübarizəsindən və Bəşər Əsəd rejimi bitdikdən sonra oradakı HƏMAS mövqelərini vurdu. Eləcə də, Türkiyənin Suriyaya olan həssaslığı göz önündədir. Bundan başqa, kürd silahlı birləşmələri Vaşinqtonu dəstəkləyir və Amerikanın orada öz planları var. Yəni Baydenin verdiyi qərarlar müvəqqətidir. Tramp gəldikdən sonra bu qərarları dəyişdirmə iqtidarında olacaq. Həmçinin Amerikanın Suriyada mövcudluğu daha da genişləndiriləcək. Bu bir strateji plandır. Çünki Xameneinin bazası Rusiyanın əlindən çıxacaq. Həmçinin Putinin bütün gücləri Ukraynaya yönləndirəcəyi bir dönəmdə Aralıq dənizi sahillərində ABŞ-nin növbəti hərbi bazasının yerləşdirilməsi də heç istisna deyil. Suriyanın yeni qurulacaq hökumətinin buna necə münasibət göstərəcəyi isə hələ bilinmir. Çünki onlar Amerika ilə çox yaxşı münasibətlərdə deyillər. Amma Tramp hökuməti gəldikdən və Suriya ilə bağlı qərarlar verdikdən sonra əsas reallıqların şahidi olacağıq".

**Aynur Babazadə**

# Azərbaycana qarşı "mükafatlandırma" oyunları keçməyəcək

## Bura Gürcüstan deyil, kənar müdaxilələrə qarşı effektiv mexanizmlər mövcuddur

**ABŞ Dövlət Departamentində dövlət katibi Antoni Blinkenin iştirakı ilə Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Gününə həsr olunmuş mükafatlandırma mərasimi olub.**



Korrupsiyaya qarşı mübarizədə "əlamətdar addımlar atmış" şəxsləri tanımaq və bu "qəhrəman tərəfdaşlarla" həmrəylik nümayiş etdirmək üçün 2021-ci ildə Korrupsiyaya Qarşı Mübarizə Çempionları Mükafatını təqdim ediblər. Departamentin mükafat verdiyi şəxslər arasında Azərbaycanda həbsdə olan "Abzas Media"nın baş redaktoru Sevinc Vaqifqızı da var. Qeyd edək ki, "Abzas Media"nın baş redaktoru olmuş Sevinc Vaqifqızı barəsində Cinayət Məcəlləsinin 206.3.2-ci (qrup halında qaçaqmalçılıq) maddəsi ilə ittiham irəli sürülüb və barəsində həbs qərarı verilib. Məsələ ondadır ki, bu gün korrupsiya ilə bağlı araşdırmalar məhz ABŞ-nin özündə aparılmalıdır. Pentaqonda on milyardlarla dollar yeyinti aşkarlanır, amma bu barədə heç kim yazmır, kimsəyə mükafat verilmir. Əvəzində Bayden öz cinayətkar oğlunu azad etdirir. Bu, Bayden administrasiyasının siması olmaqla yanaşı, həm də ayrı-ayrı ölkələrdə hüquq müdafiəçisi adı altında verilən mükafatların əsl mahiyyətini göstərir. Bayden administrasiyası müxtəlif ölkələrdə, o cümlədən də Azərbaycanda xəyanətkarları, mənəviyyatsızları tapıb pul müqabilində əməkdaşlığa cəlb edir. Sonra da öz xalqına və dövlətinə qarşı riyakarlığa görə onları "mükafatlandırır", "qəhrəmanlaşdırır". Ancaq Bayden administrasiyası da, digərləri də bilməlidirlər ki, Azərbaycanda bu oyunlar keçməyəcək. Azərbaycan Gürcüstan deyil, burada kənar müdaxilələrə qarşı effektiv mexanizmlər mövcuddur və bundan sonra da belə riyakar cəhdlərin qarşısı alınacaq.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə deyib ki, ABŞ-nin bu cür siyasəti bir çox günahsız insanları qurban çevirir. Ekspertin sözlərinə görə, əvvəlcədən şirnikləndirmə yolu ilə aldadılaraq fəal adamları bu cür qanunsuz əməllərə sövq edirlər:**

"Onları lüzumsuz yerə tərifləyib dağ başına qaldırırlar. Həvəsləndirici təkliflərlə yavaş-yavaş elə bir mərhələyə çatdırırlar ki, həmin adamlar da sonrakı mərhələdə qanun pozuntularına yol verirlər. Öz dövlətlərinə qarşı çıxmağa başlayırlar. Ümumiyyətlə, elə bir girdaba düşürlər ki, artıq oradan çıxa bilmirlər. Son nəticədə həmin adama "mükafatlar" təqdim edirlər. Bir növ dünyaya təbliğ edirlər ki, öz ölkəsində "mübarizə" aparan insanların arxasında dururlar. Amma bütün bunlar boş illuziyalardır, aldatmacadır. Çox istərdim ki, bizim fəallarımız, jurnalistlərimiz, insan haqları, vətəndaş cəmiyyəti təmsilçiləri bu cür şirnikləndirmələrə aldanmasınlar".

**Ekspertə görə, bunların hamısının məqsədi ABŞ kimi dövlətlərin maraqlarına xidmətdir:**

"Bir insan öz Vətənini, dövlətini kənara qoyub başqa bir dövlətin maraqlarına niyə xidmət etməlidir? Niyə bir insan öz dövlətinin əvəzinə kənar bir ölkənin xidmətçisi olmalıdır? Boş, uydurma tərif qazanmaq üçün əldənayaqdan getməyə dəyərmi? Bu məsələlərdə çox diqqətli olmalıyıq. Düşünürəm ki, belə təşəbbüslər "gözə kül üfürmək", aldatmaq, şirnikləndirmək, qızışdırmaq, cəmiyyətlərə qarışıqlıq salmaq cəhdindən başqa bir şey deyil. Təəssüf ki, bəzi şəxslər belə "mükafatlar" uğrunda mübarizə də aparırlar. Bəziləri bunu bilərəkdən, bəziləri isə bilmədən edirlər".

İsmayıl



**Avropa Birliyinin 13-14 nəfərdən ibarət monitorinq missiyasının əməliyyat mərkəzi daimi olaraq Cermukda yerləşir. Onlar sürücülər və köməkçilərlə birlikdə Cermukda qonaqlar üçün bağlı olan üçulduzlu "Ani" hotelində qalıblar.**

"Hraparak" nəşri məlumat yayıb ki, müşahidəçilər demək olar ki, hər gün rayonu gəzir, sərhədə gedir, bir neçə kilometr məsafədən vəziyyəti müşahidə edirlər: "Avropalı müşahidəçilər yerli administrasiya ilə demək olar ki, əlaqə saxlamırlar: heç bir məlumat tələb etmirlər, onlara heç nə vermirlər və onların nə etdiklərini heç kim bilmir". Bununla belə qəzetin yazdığına görə, avropalı müşahidəçilərin gəlişi Cermuk sakinlərini çox sevindirib: "Onlar özlərini qorunmuş hiss edirlər. Cermuk sakinləri 2022-ci ildən sonra Azərbaycan tərəfdən hücumun olmamasını müşahidəçilərin olması ilə əlaqələndirir və onların qalmasını istəyirlər. Müşahidəçilər tez-tez küçəyə çıxır, Cermuk sakinləri ilə ünsiyyət qurur və insanların onlarla necə davranması ilə maraqlanırlar".

# Aİ Rusiyaya güzəştə getmək fikrində deyil

## Əsas məqsəd hərbi və kəşfiyyat hədəflərinə çatmaqdır

**Zaman keçdikcə bu kontingentin mülki yox, hərbi missiya olmasına heç bir şübhə qalmadı**

**Vətəndaş Həmrəyliyi Partiyasının Ali Məclisinin sədri Felmar Ələkbərli "Şərq"ə deyib ki, Azərbaycan tərəfi dəfələrlə Aİ missiyasının gəlişinin regionda vəziyyətin sabitləşməsinə yox, gərginləşməsinə xidmət edəcəyini bildirib. Onun sözlərinə görə, Aİ tərəfindən həyata keçirilən bütün əməliyyatların kuratoru Fransa nümayəndəsidir:**

"Digər əməkdaşların isə istefada olan hərbçilər və müxtəlif Qərb ölkələrinin mövcud kəşfiyyatçılardır. Zaman keçdikcə bu kontingentin mülki yox, hərbi missiya olmasına heç bir şübhə qalmadı. Aİ missiyasının əsas məqsədi hərbi və kəşfiyyat hədəflərinə çatmaqdır. Tərkibin yenidən genişləndirilməsi birbaşa Rusiya və İrana qarşı yönəlmiş addımdır. Bu missiya Aİ-nin deyil, NATO-nun missiyasına çevrilir. Prosesdə Kanadanın və ABŞ-nin iştirakı da qeyd edilənləri təsdiqləyir. Belə vəziyyətdə missiya Azərbaycan və Ermənistanın kövrək sülh danışıqları prosesinə mane olur. Görünən odur ki, rəsmi Qərb Ermənistanda möhkəmlənmək üçün bu missiyadan istifadə edir. Avropa İttifaqının mülki missiyası bölgəyə gəldiyi gündən indiyə qədər əsas hədəfi Rusiyaya qarşı yönəlib".

**Ekspertə görə, Rusiya bu gün də maraqlıdır ki, həm Azərbaycanla sərhəddə, həm də Zəngəzur dəhlizi boyunca məhz rus sərhədçiləri dayansın:**

"Bu isə Qərbin və Ermənistanın maraqlarına tam ziddir. Ona görə də bu istiqamətdə əməli addımlar atmağa məcburdurlar. Rusiya KTMT qüvvələrinin bölgəyə, xüsusilə də sərhəddə yerləşdirilməsində olduqca maraqlıdır. Bu hal da Qərbin marağına uyğun deyil. Görünür, Aİ bu məsələdə Rusiyaya güzəştə getmək fikrində deyil. Ermənistan və Qərb sərhəd məsələsində Rusiyanın iştirakını tamamilə minimal səviyyəyə salmaq istəyirlər. Baş verən proseslərin Ermənistan və Rusiya arasında sərhədə nəzarətin kim tərəfindən icra ediləcəyi sualını ortaya çıxarmış olur. Bu məsələ Azərbaycanın da marağındadır ki, Ermənistanla sərhəddə məhz erməni sərhədçiləri dayansın, nəinki Aİ mülki missiyası və ya Rusiya sərhədçiləri".

İsmayıl Qocayev

# Əsədlərin erməni sevdası

## Ermənistan Suriyanın "köhnə xidmətləri"ni unutmur



**Suriyada devrilmiş Bəşər Əsəd rejiminin Ermənistanla yaxın əlaqələrinin olduğu hər kəsə məlumdur. Eyni zamanda Ermənistan hərbçiləri Hələbdə xidmət edir. Minatəmizləmə kimi qələmə verilən bu xidmət, əslində, Əsəd rejiminə dəstək məqsədi daşıyır. Həmçinin Ermənistan hərbi kontingenti Suriya ordusunun fəaliyyətinə dəstək göstərib.**

Suriyada erməni terror təşkilatları, onların Əsəd rejimi ilə sıx əlaqələri indi də davam edir. Buna misal olaraq, Nubar Ozanyan adına erməni batalyonunu göstərmək olar. Bu qruplaşma 2019-cu ildə yaradılıb və Suriya xüsusi xidmət orqanları ilə yaxından əməkdaşlıq edib. Bundan başqa, Ermənistan Suriya ilə hərbi sahədə geniş əməkdaşlıq edir. Üstəlik, İran vasitəsilə Suriyaya hərbi texnika göndərməsi də gizli deyil. Digər tərəfdən, Bəşər Əsəd rejimi də həmişə ermənipərəst mövqe tutub və Azərbaycana qarşı olub. Necə ki Kaşmir məsələsində də Pakistanı deyil, Hindistanı dəstəkləyib.

**Siyasi şərhçi Kazım Kazımov "Şərq"ə bildirib ki, Suriya Bəşər Əsəd və onun atası Hafiz Əsədin dövründə erməni terror təşkilatlarına kifayət qədər dəstək göstərib:**

"Ermənistan Suriyanın "köhnə xidmətləri"ni unutmur. Eyni zamanda 2019-cu ildən aktiv şəkildə İrəvanın dəstəklədiyi qruplaşmalar Suriyadakı rejimə yardım edir. Lakin bunların heç biri Əsəd rejiminin çökməsinin qarşısını ala bilmədi. Bundan sonra Suriya və Ermənistan arasında münasibətlərin necə olacağına gəldikdə isə bu situasiyanın dumanlı olma ehtimalı var. Suriyada yeni hökumət qurulub. Amma hökumətin tam olaraq nə qədər fəaliyyət göstərəcəyi və bundan sonra hakimiyyətə kimin gələcəyi hələ də tam olaraq müəyyənləşməyib. Bununla yanaşı, artıq ermənilərlə köklü münasibətlərə sahib olan Əsəd ailəsi olmadığına görə, Dəməşq və İrəvan arasında köhnə münasibətlər olmayacaq".

Aynur Babazadə

# Turanın ayaq səsləri ucalır

## Erməni politoloqlar Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsindən narahatdır

**Suriya bir dövlət olaraq artıq mövcud deyil. Eyni zamanda Suriya faktoru təkcə bu keçmiş dövlətin ərazisi ilə bitməyəcək və çox güman ki, tezliklə regionun xəritəsində çox ciddi dəyişikliklərin şahidi olacağıq.**



Bu sözləri erməni politoloq Arman Abovyan Suriyada Əsəd rejiminin devrilməsi haqda qeyd edib. O bildirib ki, Suriya faktoru dünyanın böyük parçalanması və ya yeni "Potsdam konfransı" ərəfəsində kəskin şəkildə aktivləşib. Suriyada "kimlərin nələr əldə etməsi"nə isə Abovyan bu cür cavab verib.

O söyləyib ki, Türkiyə Böyük Turan layihəsinin Yaxın Şərqi də əhatə edən hissəsini silah gücü ilə səmərəli şəkildə həyata keçirərək, bölgədəki fiziki varlığını əhəmiyyətli dərəcədə genişləndirdi. Bu da öz növbəsində Türkiyə-Azərbaycan tandeminin Ermənistanı daha da sıxışdırmaq və Mərkəzi Asiya istiqamətində qeyri-sabitlik yaratmaq cəhdlərinin aktivləşməsinə gətirib çıxaracaq.

**AMEA-nın əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə bildirib ki, Suriyada gedən proseslər fonunda Türkiyənin dünyada gücünü artırması bəzi dövlətləri narahat edir:**

"Həmin ölkələrdən biri də Ermənistandır. Təbii ki, burada söhbət təkcə Ermənistandan getmir, eyni zamanda regionda və dünyada Türk Dövlətləri Təşkilatının (TDT) güclü birliyə çevrilməsindən narahat olanlar var. Türkiyənin Suriyada əsas faktora çevrilməsi, xüsusilə də türklərin yaşadığı bölgələrin Bəşər Əsəd rejimindən qurtulması bir faktdır. Eyni zamanda Hələb şəhəri də türkçülüyə bağlı bir ərazidir. Həm erməni, həm də TDT-yəa qarşı olan dövlətlərin politoloqları Hələbin azad edilməsini Turanın yenidən dirçəlməsi kimi izah edirlər. Erməni politoloq Arman Abovyan Türkiyənin və Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsindən narahatdır. Bu halı Ermənistan üçün təhdid sayırlar. Tarixə nəzər yetirdikdə Ermənistan adlanan dövlət kimi bir qurumun olmadığını görürük. Ermənistan əraziləri böyük türk dövlətlərinin tərkibində olub. Bu bölgədə yerli xristian türklərini assimilyasiya edərək 18-ci ildə dövlət yaratdılar. Əslində isə Azərbaycan və Türkiyə ermənilərə heç bir problem yaratmır".

**Türkoloq-alim söyləyib ki, erməni politoloqun belə həyəcanlanmasına səbəb həmin ərazilərdə vaxtilə heç bir gücə sahib olmamalarıdır:**

"İndi isə TDT-yə daxil olan dövlətlərin, xüsusilə də Azərbaycan və Türkiyənin güclənməsi Ermənistanı narahat edir. Belə hallar isə ermənilərin məkrli olmasını növbəti dəfə sübuta yetirir. Anadoludan Uyğurustana, Krımdan Kərkük və Hələbə qədər ərazilərdə tarix boyu türk dövlətləri mövcud olub. Ermənilər indiyə qədər zaman-zaman ABŞ, Fransa, Rusiyaya güvəniblər. Hazırda onlar öz rolunu itirirlər və türk faktoru meydana çıxır. Faktiki olaraq tarix öz ədalətini bərpa edir və edəcək. Ermənistan bu şərtlər altında Fransa, ABŞ və hansısa ölkənin maşa dövləti olmaqdan qurtarmalıdır".

Şahanə Ziyad

# Cərimələr gəlir...

## Avtomobilinizi təmiz saxlayın!

**Dövlət qeydiyyat nişanlarını təmiz saxlamayan sürücülər cərimələnəcək. Bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin dövlət qeydiyyat nişanları ilə bağlı sürücülərə müraciətində bildirilib.**

Qeyd olunub ki, qanunvericiliyə əsasən hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanlarının aydın görünməsi üçün onun təmiz saxlanılması təmin edilməlidir. Bu vəzifənin yerinə yetirilməməsi avtomobilin istismarı qaydalarının pozulması hesab edilir və inzibati məsuliyyət yaradır:

"Son günlər müşahidə olunan yağmurlu hava şəraiti ilə əlaqədar avtomobillərin dövlət qeydiyyat nişanlarının təmizliyinə daha çox diqqət ayrılmalıdır. Təəssüf ki, bəzən yağmurlu hava şəraitindən suiistifadə edərək avtomobilinin dövlət qeydiyyat nişanlarının təmizliyinə əhəmiyyət verməyən, hətta bilərəkdən nişanların üstünü süni şəkildə çirkləndirən sürücülərə rast gəlinir ki, bu da xoşagəlməz nəticələrə səbəb olur".

**Nəqliyyat problemləri üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında qeyd etdi ki, avtomobil idarə olunarkən onun dövlət qeydiyyat nişanları təmiz vəziyyətdə olmalıdır:**

"Günün qaranlıq saatlarında isə işıqlandırılmalıdır. Bu "Yol hərəkəti haqqında" qanunda da təsbit olunub və İnzibati Xətalar Məcəlləsində də var. Yəni yeni qərar deyil. İndi məsələnin aktuallaşması artıq payız, qış mövsümü ilə əlaqəlidir. Məlumdur ki, bu mövsümdə yağışlı və palçıqlı havalar çox olur. Sürücülər üçün bir daha xatırlatma edilir ki, yadda saxlasınlar və dövlət qeydiyyat nişanlarını təmiz saxlasınlar. Dövlət qeydiyyat nişanları Yol Patrul Xidmətinin əməkdaşları və xüsusi qurğular üçün aydın şəkildə görünməli və bilinməlidir".



**Dövlət qeydiyyat nişanları aydın şəkildə görünməlidir**

**Nəqliyyat eksperti İlqar Hüseynli isə bildirdi ki, dövlət qeydiyyat nişanları oxunan şəkildə olmalıdır:**

"Birincisi, bilirik ki, müxtəlif formada az və yüngül dərəcəli xəsarətlərə gətirib çıxaran qəzalar olur. Bəzən bu qəzaların hansı sürücü tərəfindən, hansı şəraitdə baş verdiyini müəyyənləşdirmək üçün qeydiyyat nişanı bilinməlidir. Əgər nömrə oxunaqsız vəziyyətdədirsə, bunu müəyyən etmək çətin olur. Eyni zamanda Dövlət Yol Polisinin əməkdaşları tərəfindən baş verən cinayətlərin inzibati xətaların və qəza hallarının fiksasiya olunması, tanınması məsələlərində problem yaradır. İkincisi isə estetik olaraq nəqliyyat vasitəsinin görünüşündə xoşagəlməz vəziyyət yaranır. Həmçinin nəqliyyat vasitəsinin qeydiyyat nişanının üzərində olan toz, torpaq, palçıq, zibillər şəhərə tökülərək ekoloji cəhətdən problemlər yaradır. Yəni bütün bunların hamısı birbaşa qanunla tənzimlənən məsələdir. Qanun deyir ki, qışın hansı havasında olursan ol, maşın sürərkən dövlət qeydiyyat nişanı görünən şəkildə olmalıdır".

Fidan Həmişəyeva

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Əməkdaşlıq güclənir

## Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əlaqələrinin başlaması müstəqillik illərinə təsadüf edir

**Dekabrın 9-da Ər-Riyad şəhərində Azərbaycanın və Səudiyyə Ərəbistanının xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin üçüncü raundu keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Səudiyyə Ərəbistanı nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Valid Əl-Xureyci rəhbərlik ediblər.**

Görüşdə iki ölkə arasında əlaqələrin gücləndirilməsi, siyasi, iqtisadi, energetika və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Bu ilin noyabrında Azərbaycanın ev sahibliyi etdiyi COP29-un iki ölkə arasında mövcud əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığı bildirilib. Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb, qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsi razılaşdırılıb. Postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan tərəfindən davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və orada həyata keçirilən bərpa-quruculuq işləri barədə qarşı tərəfə ətraflı məlumat verilib. Görüşdə turizm, yaşıl enerji və investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğu vurğulanıb. Siyasi məsləhətləşmələr zamanı, həmçinin regional, beynəlxalq məsələlər və birgə maraq daşıyan digər mövzular da müzakirə olunub. Səfər çərçivəsində Y.Rəfiyev, həmçinin Səudiyyə Ərəbistanı Krallığının enerji nazirinin davamlılıq və iqlim dəyişikliyi üzrə müavini Xalid Əl-Mehaid ilə görüşüb. Bir neçə gün öncə Səudiyyə Ərəbistanı Krallığının xarici işlər üzrə dövlət naziri Adil bin Əhməd Əl-Cubeyr Ər-Riyadda Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29 Prezidenti Muxtar Babayevlə görüşüb. Görüş zamanı iki ölkə arasında ətraf mühit, iqlim və torpaq deqradasiyası sahələrində əməkdaşlığın gücləndirilməsi imkanları müzakirə olunub. Həmçinin konfransın gündəliyindəki əsas mövzular haqqında fikir mübadiləsi aparılıb. Görüşdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev də iştirak edib. Bununla yanaşı, Azərbaycan və Səudiyyə Ərəbistanı ticarət və investisiyaların təşviqi imkanlarını müzakirə edib. Müzakirələr nazir Mikayıl Cabbarovun Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində təşkil edilmiş görüşlərdə aparılıb. Tərəflər ölkələrimizin dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, ticarət və investisiyaların təşviqi imkanlarını müzakirə ediblər. Həmçinin Səudiyyə Ərəbistanının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudla keçirilən görüşdə ölkələrimizin "yaşıl enerji" gündəliyinin prioritet istiqamətləri, bu sahədə birgə fəaliyyətin uğurlu nəticələri və ölkələrimiz üçün faydaları barədə fikir mübadiləsi aparılıb. Enerji keçidində potensial layihələr üzrə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. Görüşdə bərpa olunan enerjinin səmərəliliyinin, alternativ enerji mənbələrinin enerji sektorunda payının artırılmasının ölkəmizin iqtisadi inkişaf strategiyasında vacib məsələlərdən olduğu diqqətə çatdırılıb. Bu istiqamətdə Səudiyyə Ərəbistanı Krallığı ilə əməkdaşlığa önəm verildiyi qeyd olunub.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov da ölkəmizdə rəsmi səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının hərbi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyindən bildirilib ki, general-polkovnik Z.Həsənov qonaqları Azərbaycanda görməkdən məmnunluğunu ifadə edib. Müdafiə naziri ölkələrimiz arasında dostluq və qardaşlıq prinsipi üzərində qurulan əlaqələrin inkişaf etdirilməsinə xüsusi önəm verildiyini və hər zaman Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət mərkəzində saxlanıldığını bildirib. Bu il sentyabrın 24-26-da Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Səudiyyə Ərəbistanının geniş tərkibdə nümayəndə heyəti ilə iştirakının yüksək qiymətləndirildiyi qeyd olunub. Nazir Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilmiş ərazilərin minalardan təmizlənməsi ilə bağlı görülən tədbirlər barədə qonaqları məlumatlandırıb və Səudiyyə Ərəbistanı tərəfindən bu işdə göstərilən dəstəyə görə onlara təşəkkürünü bildirib. Qeyd edilib ki, Vətən müharibəsindən sonra minaların partlaması nəticəsində indiyədək zərər çəkən 382 nəfər mülki və hərbi qulluqçudan 70 nəfəri həlak olub. Daha sonra general-polkovnik Z.Həsənov Bakıda Azərbaycan-Türkiyə-Səudiyyə Ərəbistanı arasında kəşfiyyat sahəsində üçtərəfli formatda keçiriləcək işçi görüşündə iştirakçılara uğurlar arzulayıb. Ölkəmizə səfərindən məmnun olduğunu qeyd edən nümayəndə heyəti göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması münasibətilə general-polkovnik Z.Həsənovu təbrik edib, şəhid olanlara Allahdan rəhmət diləyib və onların yaxınlarına dərin hüznlə başsağlığı verib. Qonaqlar hərbi nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin genişlənməsinə təkan verdiyini vurğulayıblar. Görüşdə hərbi, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə edilib. Görüşdə qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın daha da inkişaf edəcəyinə əminlik ifadə olunub. Tərəflər, həmçinin təcrübə mübadiləsinin əhəmiyyətini xüsusi vurğulayıb və maraq doğuran bir çox digər məsələlərə dair müzakirələr aparıblar.

**İki müsəlman dövləti olaraq iqtisadi, siyasi, hərbi, mədəni və başqa sahələrdə davamlı əlaqələrin inkişafı Azərbaycanın xeyrinədir**

**Milli Cəbhə Partiyasının sədr müavini, siyasi şərhçi Tural İrfan "Şərq"ə deyib ki, Azərbaycan demək olar ki, bütün ərəb ölkələri ilə isti münasibətdədir. Ekspertin sözlərinə görə, yeganə olaraq Suriya və Livan kimi ermənilərin təsirinin daha çox olduğu ölkələr ilə zəif əlaqələr var:**

"Bu da onların stabil hökumətinin hələ ki, formalaşmış olmaması ilə əlaqədardır. Suriyada baş verən dəyişikliklər nəticəsində ümid edirəm ki, bu da qaydasına düşəcək. Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əlaqələrinin başlaması müstəqillik illərinə təsadüf edir. Münasibətlər getdikcə inkişaf etməkdədir. İqtisadi, siyasi əlaqələrin, mədəni münasibətlərin daha da inkişaf etməsi Qarabağ zəfərindən sonra Azərbaycana daha da artan marağın nəticəsidir. Hərbi əlaqələrin də qorunması, qarşılıqlı münasibətlərin dəyərləndirilməsi hər iki ölkə üçün əlamətdardır. Qarabağ zəfərindən sonra Azərbaycan ordusunun məharətinə, döyüş qabiliyyətinin yüksək olmasına diqqət artıb və hərbi sahədə də ölkəmizlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Bunlardan biri də Səudiyyə Ərəbistanıdır".

**Siyasi şərhçi qeyd edib ki, Ermənistan sovet dövründən qalma münasibətlər çərçivəsində ərəb ölkələri ilə münasibətlərə can atır:**

"Ancaq şübhəsiz ki, həm dini, mədəni, həm də başqa ortaq maraqların olması Səudiyyə Ərəbistanının Ermənistandan daha çox Azərbaycanla əlaqələri sıxlaşdırmasına ehtiyac var. Rəsmi Ər-Riyad da bunu anlayır və məğlub olmuş, iqtisadiyyatı çökmüş haqsız ölkə ilə deyil, qalib, dünyada nüfuz sahibi olan haqlı Azərbaycan ilə əlaqələrə üstünlük verir. Azərbaycanın hərb meydanında qələbəsindən sonra siyasi müstəvidə də qələbələri bəzi tendensiyaları dəyişir. Müxtəlif ölkələrin Azərbaycana münasibəti də müsbət mənada dəyişir. Azərbaycanla varlı neft ölkəsi olan Səudiyyə Ərəbistanı arasında əlaqələrin daha sıx əməkdaşlıq səviyyəsində inkişaf etməsinə böyük ehtiyac var. İki müsəlman dövləti olaraq iqtisadi, siyasi, hərbi, mədəni və başqa sahələrdə davamlı əlaqələrin inkişafı, investisiya yatırımı, ticarət mövzusunda Azərbaycanın xeyrinədir. Energetika və humanitar sahələrdə Səudiyyə Ərəbistanı vacib ölkələrdəndir və bu sahədə də Azərbaycan ilə əməkdaşlığın dərinləşdirilməsinə zərurət var".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Şikayətlər üçün xüsusi mexanizmlər yaradılmalıdır

## Kamran Əsədov: "Təhsil haqqında" qanun valideynlərdən əlavə ödəniş tələb edilməsini qadağan edir

**Xəbər verdiyimiz kimi, Gəncə şəhəri İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbdə çoxsaylı nöqsanlara yol verilməsi, müxtəlif bəhanələrlə şagirdlərdən pul yığılması ilə bağlı iddialar yayılıb.**

Yayılan iddialarla bağlı aparılan araşdırmalar zamanı Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi tərəfindən təhsil müəssisəsində bir sıra nöqsanlar aşkar edilib və Regional Təhsil İdarəsinin müvafiq əmrinə əsasən, adıçəkilən təhsil müəssisəsinin direktoruna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

Modern.az araşdırıb ki, sözügedən məktəbin direktoru Gülbəniz Bayramovadır.

O, bu ilin mart ayında sözügedən məktəbə direktor təyin edilib. Gülbəniz Bayramova Gəncə Dövlət Universitetinin Azərbaycan dili və Ədəbiyyat ixtisasını bitirib, 2004-cü ildən Mehdi Mehdizadə adına 4 nömrəli xarici dillər təmayüllü məktəb liseydə Azərbaycan dili və Ədəbiyyat fənnini tədris edib.

Qeyd edək ki, sözügedən məktəb Gəncənin ən qalmaqallı təhsil müəssisələrindən biridir. Məktəbin əvvəlki direktoru Mətanət Qarayeva 2022-ci ildə yaşanan qalmaqalla gündəmə gəlmişdi. Mətbuatda yayılan məlumatlara görə, o, 14 ədəd dərman həbi içərək özünü öldürmək istəyib. Ancaq rəsmi qurumlar bu iddianın doğru olmadığını bildirib. Daha sonra direktor vəzifəsindən azad edilib.



**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə bildirib ki, məktəblərdə valideynlərdən müxtəlif adlar altında pul yığılması, o cümlədən şagirdin çantasına xəbərsiz şəkildə sınaq imtahan bileti qoyulması həm qanunvericiliyə, həm də pedaqoji prinsiplərə zidd bir davranışdır:**

"Təhsil müəssisələrinin əsas funksiyası şagirdlərə bilik və dəyərlər qazandırmaqdır, lakin bu cür halların baş verməsi həm müəllimlərin, həm də məktəb rəhbərliyinin peşəkarlığını və etik davranışlarını sual altına qoyur. Belə davranışların cəmiyyətdə təhsil sisteminə olan inamı zəiflətdiyi və şagirdlərdə təhsilə qarşı mənfi münasibət yaratdığı açıq-aşkardır. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, dövlət və bələdiyyə təhsil müəssisələrində təhsil pulsuzdur. "Təhsil haqqında" qanun və "Ümumtəhsil məktəblərinin nizamnaməsi" valideynlərdən hər hansı əlavə ödəniş tələb edilməsini qəti şəkildə qadağan edir. Fond pulu, təmizlik pulu, xadimə pulu və summativ qiymətləndirmə üçün tələb edilən vəsaitlər qanunsuzdur və belə halların baş verməsi məsul şəxslərin qanun qarşısında cavab verməsini tələb edir. Təhsil müəssisəsi dövlət tərəfindən maliyyələşdirilir və şagirdlərin valideynlərindən əlavə ödəniş tələb edilməsi onların hüquqlarının pozulmasıdır. Şagirdin çantasına xəbərsiz şəkildə sınaq imtahan bileti qoyulması isə müəllim etikasına zidd bir hərəkətdir. Müəllim yalnız bilik ötürən deyil, eyni zamanda şagirdlərə düzgün davranış nümunəsi göstərən şəxsdir. Bu cür davranışlar müəllimlərin nüfuzuna, şagird-müəllim münasibətlərinə və təhsil prosesinə ciddi zərər vurur. Şagirdlərə belə yanaşma onların özlərini yalnız pul mənbəyi kimi hiss etmələrinə səbəb ola bilər və bu, təhsil mühitindəki əsas dəyərlərə ziddir. Həmin məktəbin direktoruna şiddətli töhmət verilməsi problemin həllində yalnız qismən addım hesab edilə bilər. Bu cür qanunsuzluqların qarşısını almaq üçün sistemli yanaşma tətbiq olunmalıdır. Töhmət vermək yalnız xəbərdarlıq xarakteri daşıyır və köklü problemlərin həlli üçün kifayət deyil. Belə halların təkrarlanmaması üçün məsuliyyət daşıyan şəxslərə qarşı daha ciddi tədbirlər görülməli və bu cür davranışlar təkrarlandığı halda, onların vəzifələrindən kənarlaşdırılması təmin edilməlidir".

**Ekspert qeyd edib ki, belə halların baş verməməsi üçün bu addımlar atılmalıdır:**

"Birincisi, təhsil müəssisələrində şəffaflıq və məsuliyyət prinsipləri gücləndirilməlidir. Valideynlərdən və ya şagirdlərdən hər hansı formada pul tələb edilməsi qəti qadağan edilməli və bu cür hallar haqqında şikayətlər üçün xüsusi mexanizmlər yaradılmalıdır. Təhsil Nazirliyi və yerli idarəetmə orqanları bu cür məsələlərə nəzarəti gücləndirməli, şikayətlərə operativ və obyektiv şəkildə baxmalıdır.

İkincisi, müəllimlərin və məktəb rəhbərliyinin etik davranış qaydalarına riayət etməsi təmin olunmalıdır. Müəllimlərin tədris prosesində şagird və valideynlərə hörmətlə yanaşması və onların hüquqlarını qoruması əsas prinsiplərdən biridir. Bu cür hallara yol verən müəllim və rəhbər işçilər məsuliyyətə cəlb edilməli, eyni zamanda təkrar halların qarşısını almaq üçün maarifləndirici tədbirlər həyata keçirilməlidir.

Üçüncüsü, məktəblərdə əlavə maliyyə ehtiyaclarının qarşılanması üçün valideynlərə müraciət etmək əvəzinə, dövlətin dəstəyi gücləndirilməlidir. Məktəblərin təmir işləri, təmizlik və digər xərcləri üçün ayrılan büdcə vəsaitlərinin səmərəli şəkildə idarə olunması təmin edilməli, maliyyə ehtiyacları dövlət və yerli idarəetmə orqanları tərəfindən tam şəkildə qarşılanmalıdır.

Dördüncüsü, şagirdlərə sınaq imtahan biletlərinin satılması ilə bağlı məsələlərə son qoyulmalıdır. Sınaq və ya summativ qiymətləndirmələr yalnız məktəbin resursları əsasında təşkil olunmalı, bu prosesdə heç bir kommersiya fəaliyyəti həyata keçirilməməlidir. Təhsil prosesində səmərəlilik və keyfiyyət əsas məqsəd olmalı, maliyyə maraqları bu məqsədləri kölgədə qoymamalıdır.

Nəticə olaraq, məktəblərdə qanunsuz pul yığımına və etik olmayan davranışlara qarşı ciddi tədbirlər görülməlidir. Təhsil sistemi yalnız qanunlara deyil, həm də etik prinsiplərə əsaslanmalıdır. Hər bir şagirdin hüquqlarının qorunması və sağlam təhsil mühitinin təmin edilməsi üçün həm valideynlər, həm də dövlət strukturları bu məsələdə birgə məsuliyyət daşımalıdır. Bu, gələcəyimizin təməlini təşkil edən təhsilin keyfiyyətinə birbaşa təsir edir".

**Fidan Həmişəyeva**

# "Məqsədim hər zaman Azərbaycanın adını yüksəltmək olub"

## Radcana Sultanova: "İstəyirəm Azərbaycan millətinə və mədəniyyətinə daha çox xidmət edim, daha çox beynəlxalq müsabiqələrə qatılım"








**Bu gün xaricdəki azərbaycanlı xanımlar da ölkəmizi və xalqımızı layiqincə təmsil edirlər. Onların əldə etdikləri uğurlar Azərbaycanın adını daha da yüksəklərə qaldırır. Bu günlərdə ölkəmizdə qonaq olan model və "Tərcümə dünyası" MMC-nin təsisçisi və direktoru Radcana Sultanova da təqdirəlayiq fəaliyyət göstərir.**

Xatırladaq ki, əslən azərbaycanlı olan Radcana Sultanova Tatarıstanın Kazan şəhərində doğulub, orada böyüyüb boya-başa çatıb. Hazırda Kazanda yaşayır və çalışır. "Şərq"ə müsahibəsində dediyi kimi, hər zaman millətimizi, dilimizi, ənənələrimizi, mədəniyyətimizi, musiqimizi sevib və təbliğ edib.

**- Azərbaycana tez-tez gəlirsiz?**

- Azərbaycanla davamlı əlaqəm var. Atam azərbaycanlıdır, Gürcüstanda yaşayıb. Atam sağ olanda, tez-tez Azərbaycana gəlirdik, yay aylarını baba və nənəmin yanında keçirirdik. Sonralar tez-tez gəlmək mümkün olmurdu. İndi çalışıram, hər il Azərbaycana gəlim. Yenə buradayam. Budəfəki səfərin səbəbi xeyir işdir, toydur, xalam qızının toyuna gəlmişik. Bakıda gəzdik. Azərbaycanda olmaq çox xoşuma gəlir, xüsusilə Azərbaycan mətbəxini çox bəyənirəm.

**- Yaşadığınız ölkədə, öz fəaliyyətinizdə Azərbaycanı necə tanıdıb, təbliğ edirsiniz?**

- Həmişə fəxr etmişəm ki, azərbaycanlıyam və hər zaman məqsədim Azərbaycanın adını yüksəltmək olub. İki övlad yetişdirmişəm, özümü hər sahədə göstərmək istəmişəm. Əvvəllər azərbaycanlı qadınların təhsilinə dair müsbət münasibət az idi. Qadınların təhsil almasına birmənalı yanaşmırdılar. Amma atam hər zaman deyirdi ki, mütləq oxumalısan. Mən də onun bu arzusunu həyata keçirməyə çalışırdım. İki ali təhsilim var. Kazan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində, daha sonra isə İdarəetmə Universitetinin (TBYİ) Hüquq fakültəsində ali təhsil almışam. Atamın arzusunu çin etmişəm, verdiyi təlimatlara görə həyatımı qurmağa çalışmışam. 2004-cü ildə tələbə ikən öz biznesimi açdım. Təxminən 20 ildir ki, bizneslə məşğul oluram. Atamdan əxz etdiyim dəyərləri öz həyatımda tətbiq etmişəm. Mənə deyirdi ki, qadın özünü düzgün aparmalıdır. Ailəmizin və millətimizin ənənələrinə uyğun şəkildə böyüdüm və bu prinsipləri qəbul edərək yaşadım.

**- Bu yaxınlarda Cənubi Koreyada keçirilən "Mrs.Universe-2024" (Dünya gözəli) gözəllik müsabiqəsində qalib olmusuz. Necə oldu ki, bu yarışmaya qatıldınız?**

- Bu qərarı verməyimin əsas səbəbi, Azərbaycanı layiqincə təmsil etmək istəyim idi. Özümü tam olaraq azərbaycanlı hiss edirəm və bu missiyanı qürurla daşıyıram. Böyük məsuliyyət daşıyırdım. Hər işimi səmimi şəkildə etdim və çalışdım ki, orada maksimum yadda qalım. Azərbaycan qadını olaraq özümü tanıtdım. 47 il ərzində ilk dəfə Azərbaycan adına bu müsabiqədə təmsil olundum. Düşünürəm ki, çox yaxşı nəticə göstərdim. İlk olaraq 114 ölkədən 25 qadın arasında yer aldım. Sonra ilk onluğa daxil olaraq 7-ci yeri tutdum. Bu, mənim üçün çox böyük bir nailiyyətdir və qürur duyuram. Prinsiplərimə sadiq qalıram və bildiyim yoldan dönmürəm. Əminəm ki, Azərbaycanı ləyaqətlə təmsil etdim. Beynəlxalq müsabiqənin bütün iştirakçılarını və tamaşaçılarını bu gözəl ölkə ilə mümkün qədər tanış etdim.

**- Bundan öncə belə müsabiqələrdə iştirak etmisiniz?**

- Azərbaycanı təmsil edən ilk qadın olaraq, Tatarıstanda keçirilən "Mrs. Business Tatarıstan" yarışmasında birinci yer tutdum və Qran-Pri qazandım. Bu uğurumdan sonra Rusiyada təşkil edilən müsabiqəyə qatılmaq üçün dəvət aldım. Orada 16 regiondan 30 qadın iştirak edirdi və onların arasında da birinci yerə layiq görüldüm. Müsabiqə təşkilatçıları dedilər ki, "gəl, səni xaricə göndərək". Razılaşdım və nəticədə Azərbaycanı təmsil etmək qərarına gəldim.

**- Gələcək planlarınız barədə nə deyərdiniz?**

- Əlbəttə, əsas qayəm daim Azərbaycan millətinə və mədəniyyətinə xidmət etməkdir. Həmçinin daha çox beynəlxalq müsabiqələrə qatılmaqdır. Düşünürəm ki, bu, yalnız Azərbaycanı təmsil etmək yox, eyni zamanda biznes sahəsində də irəliləmək deməkdir. Şəxsi brendimi inkişaf etdirirəm və hər yerdə başımı uca tutaraq fəxrlə deyirəm ki, mən azərbaycanlıyam. Tatarıstanda, demək olar ki, bizneslə məşğul olan birinci azərbaycanlı qadın olmuşam. Biznesimi yaratmışam və qadınların uğurunu dəstəkləyərək onlara yol göstərmişəm. Məqsədim yalnız şəxsi uğurumla kifayətlənmək deyil, həm də biznes sahəsində qadınların inkişafında daha çox yer almaq, onlara dəstək olmaqdır. Qismət olarsa, bu arzumu gerçəkləşdirəcəm. Yaxın gələcəkdə yenidən Azərbaycana gəlməyi planlaşdırıram.

**Fuad Hüseynzadə,**
**"Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri**



# İnsanların çoxu psixoloji gərginlik içindədir

## Metroda, avtobusda, səkidə və hər yerdə bu cür insanlar var

### Həkimlər və müəllimlər aqressiyaya ən çox məruz qalan insanlardır

**Bakıda həkim xəstənin yaxınları tərəfindən döyülüb. Hadisə paytaxtın Suraxanı rayonunda qeydə alınıb. Belə ki, çağırışa gedən həkim Mətin Arif oğlu Səmədov xəstənin yaxınları tərəfindən döyülüb.**

Yaralı müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanaya çatdırılıb. Müayinə zamanı ona döş qəfəsinin küt travması diaqnozu qoyulub. Faktla bağlı araşdırma aparılır.

**Mövzu ilə bağlı "Şərq"ə danışan sosioloq Lalə Mehralı söyləyib ki, bu vəziyyət insanların nə qədər psixoloji gərginlik altında yaşadığının göstəricisidir:**

"Bir cəmiyyətdə ki, insanlar həkimlərə belə hücum edirlərsə, bu o deməkdir ki, artıq nə dözümlülük, nə empatiya, nə də başqasının fikrinə hörmət qalıb. Yəni bütün hallarda insanlar aqressiya ilə yüklənib. Hamı aqressiyasını başqasının üstünə boşaltmağa hazırlaşır. Həkimlər və müəllimlər aqressiyaya ən çox məruz qalan insanlardır. Çünki insanlarla çox işləyirlər. Mən hətta şahidi olmuşam ki, anadangəlmə bağırsaq çıxışı olmayan uşağa görə ata ginekoloqu döyüb ki, "sən yaxşı ginekoloq olsaydın, doğuş prosesində mənim uşağımın bağırsaq çıxışı qaydasında olardı". Təsəvvür edin ki, insan bunun anadangəlmə vəziyyət olduğunu dərk etmir. Yəni bu proses doğuşda olmayıb, insanın ana bətnində anomaliya ilə inkişaf etməsi və anomaliya ilə doğulması deməkdir. Ehtimal edirəm ki, burada da həkimin döyülməsində, onun günahı yoxdur. Sadəcə, həmin an insan o qədər aqressiv, o qədər dözümsüz olur ki, mütləq qaydada əsəbini başqasından çıxarmaq ehtiyacı hiss edir. Metroda, avtobusda, səkidə və hər yerdə bu cür insanlar var. Tək həkimlərə qarşı deyil. Onlar bir himə bənddirlər ki, başqasına qarşı güc tətbiq eləsinlər, zorakılıq göstərsinlər".

**Fidan Həmişəyeva**

### Elan

Bakı Biznes Universitetinin 2-ci kurs tələbəsi Bayramov Zaur Mürşüd oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Kənd Təsərrüfatı müəssisəsi tərəfindən Qasımov Haqverdi Lətif oğluna məxsus 2003-cü ildə verilmiş 0,10 sot torpaq sahəsinin sənədi itdiyi üçün etibarsız sayılır.

Bakı Biznes Universitetinin 1-ci kurs tələbəsi Quluzadə Nəzrin Xalıq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# 2025-ci ilə hazır olun!

## 25 üsul həyatınızı tamamilə dəyişəcək

*(Əvvəli səh: 8- də)*

**5 - İlk tərəvəz**

Yemək zamanı əvvəlcə tərəvəz, sonra zülal, sonra isə karbohidrat yeyin. Bu ardıcıllıq qan şəkərinin səviyyəsini tənzimləməyə, istəkləri azaltmağa və gün ərzində enerjini balanslaşdırmağa kömək edir.

**6 - Güc əhəmiyyətlidir**

Yaşlandıqca, gündəlik işinizə daha çox müqavimət təlimi əlavə etmək çox vacibdir. Əzələ kütləsi uzunömürlülüyün vacib göstəricisidir, ürək-damar sağlamlığından sonra ikincidir.

**7 - Düzgün nəfəs alın**

Ağzınızla deyil, burnunuzla nəfəs almağa üstünlük verin. Burnunuzla nəfəs almaq oksigen qəbulunu artırır, allergenləri süzür və azot oksidi çıxararaq qan dövranını yaxşılaşdırır. Bu təcrübə ağız sağlamlığına və yuxu keyfiyyətinə də müsbət təsir göstərə bilər.

**8 - Vacib yuxu**

Yuxu keyfiyyətli olmalıdır. Pis yuxu əhvali-ruhiyyəyə və diqqətə təsir edir və zaman keçdikcə xərçəng və demans kimi ciddi xəstəliklərin riskini artırır.

**9 - Plastikdən qurtarın**

Plastik qablar və butulkalardan uzaq durun, çünki onlar qida və içkilərə kimyəvi maddələr qatır, hormonları pozur və bəlkə də, xərçəng riskini artırır.

**10 - Telefon və kompüterdən istifadə**

Reproduktiv sağlamlığa mənfi təsir göstərə biləcək elektromaqnit sahələrinə məruz qalmağı minimuma endir.

**11 - Təbii işıq sinxronzasiyası**

Xəstəlikdən qoruyan genləri aktivləşdirmək və hormonal tarazlığı optimallaşdırmaq üçün yuxu cədvəlinizi təbii işıq nümunələri ilə uyğunlaşdırın (gün çıxanda oyanmaq və qürubda yatmaq).

**12 - Axşam işıqları söndür**

Axşam yaxınlaşdıqca, sirkadiyalı ritminizi poza və dərin yuxuya mane ola biləcək parlaq işıqlara məruz qalmağı minimuma endirmək üçün işıqlarınızı söndürün və ya mavi işıqlı eynək taxın.

**13 - İşlənmiş qidalardan uzaq durun**

Tək tərkibli bütün qidaların istehlakını vurğulamaq, zehni aydınlığı və enerjini artırmaq, eyni zamanda işlənmiş qidalardan qaçınmaq; bu, bağırsaq zədələnməsinə və iltihabına səbəb ola bilər.

**14 - Balans stress**

Soyuq duşlar və ya intensiv məşqlər kimi yüngül stresləri nizamlı iş rejiminizə daxil edin. Onlar hüceyrə sağlamlığını yaxşılaşdıra və qocalma prosesini yavaşlada bilər.

**15 - Günlük saxlayın**

Məqsədlər təyin etmək və stress səviyyələrini azaltmaq üçün gündəlik məşq edin və narahatlığı aradan qaldırmaq üçün serotonin istehsalını artırın.

**16 - Alkoldan uzaq**

REM yuxusu kimi bərpaedici yuxu mərhələlərində fasilələrin qarşısını almaq üçün yatmadan ən azı dörd saat əvvəl spirt istehlak etməkdən çəkinin.

**17 - Təbii məhsullar**

Tez-tez istifadə etdikdən sonra hormonları pozan kimyəvi maddələrin yığılmasına səbəb olmayan təbii gigiyena məhsullarından istifadə edin.





**19 - Beyni mükəmməlləşdirən fəaliyyətlər**

Koqnitiv geriləmə risklərini azaltmaq və zehni cəhətdən kəskin qalmaq üçün beyninizi hər gün oxumağa, bulmacalar həll etməyə və ya yeni dillər öyrənməyə cəlb edin.

**20 - Aralıq orucu**

Hüceyrələri təmir edən və ölü zülalları təmizləyən otofagiya prosesini işə salmaq üçün aralıq orucu (16+ saat) rejiminə daxil edin; bu, potensial olaraq xərçəng kimi xəstəliklərin qarşısını ala bilər.

**21 - Duruşa nəzarət**

Fiziki fəaliyyət zamanı düzgün məşq formasını təşviq etmək və zədələrin qarşısını almaq üçün yaxşı duruşunuzu qoruyun.

Gün ərzində duruşunuzu mütəmadi olaraq yoxlayın və optimal uyğunlaşma təmin edin.

**22 - Meditasiya**

Mümkün olduqca meditasiya etməyə vaxt ayırın, bu, stress və narahatlığı azaltmaq üçün ən praktik və təsirli yol kimi işləyir və həm fiziki, həm də zehni rifahınızı yaxşılaşdırır.

**23 - Şəxsi səyahət**

Sosial mediada özünüzü başqaları ilə müqayisə etməkdən çəkinin, hər kəsin səyahəti unikaldır. Qeyri-adekvat və ya qısqanc hiss etmək əvəzinə öz məqsədlərinizə diqqət edin.

**24 - Təcrübələrə diqqət edin**

Təcrübələri maddi sərvətlərdən üstün tutun;

**25 - Planlaşma**

İndiki məqamı mənimsəmək çox vacib olsa da, nəticələrə diqqət yetirmədən istiqamət verən uzunmüddətli hədəflər təyin edərək gələcək üçün də planlaşdırın.

*Bu məsləhətləri 2025-ci ildə gündəlik iş rejiminizə tətbiq etməklə siz sağlamlığınızı əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilərsiniz: fiziki, zehni və emosional. Bu vahid yanaşma təkcə ümumi rifahınızı yaxşılaşdırmayacaq, həm də sizə yeni ilə yeni güclə qədəm qoyarkən sağlamlıq səyahətinizi öz üzərinə götürməyə imkan verəcək.*

**Turan**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2883



## Maskın oğlundan atasına mesaj

“Amerikanı xilas et, Trampa kömək et”



**”Tesla” və ”SpaceX” şirkətlərinin sahibi, milyarder İlon Maskın X postu trend mövzusuna çevrildi.**

”Şərq” xəbər verir ki, dörd yaşlı X A-12, qısaca ”X” atasına seçilmiş Prezident Donald Tramp tərəfindən verilən Hökumətin Səmərəliliyi İdarəsinin rəhbəri vəzifəsində nə etməli olduğunu söyləyib.

Onun atasına verdiyi cavab həm sosial mediada, həm də siyasi dairələrdə böyük əks-səda doğurub. Paylaşdığı videoda ümumilikdə 12 övladı olan 53 yaşlı milyarder oğluna ”nə etməliyəm?” deyə soruşur. Balaca X ”Amerikanı xilas et”, ”Tramp kömək et!” cavabını verir.

Milyarder Maskın ”Bu uşağın böyük instinktləri var” qeydi ilə paylaşdığı paylaşım qısa zamanda trend mövzusuna çevrilib.

Balaca X atasının iş həyatına yoldaşlıq etməyə davam etsə də, artıq diqqətləri üzərinə çəkir.

Elon Mask və oğlu keçən həftə Senat çoxluğunun lideri Con Tun ilə görüşmək üçün birlikdə Kapitoliyə gəliblər.

Mask və oğlu Donald Trampın seçkilərdə qələbəsini qeyd etmək üçün Floridanın Mar-a-Laqo bölgəsində təşkil edilən şənlik təşkilatının diqqət çəkən adları arasında idi.

İlon Maskın müxtəlif tərəfdaşlardan cəmi 12 uşağı var. Ən kiçik övladı X, Maskın kanadalı musiqiçi Qrayms ilə münasibətindən doğulub. Maskın ailə həyatı da zaman-zaman mürəkkəb müzakirələrə səhnə olur.

Xüsusilə Mask və onun 20 yaşlı qızı Vivian Jenna Vilson arasındakı gərginlik diqqət çəkir. Doğulduğu adı Xavier olan Vivian cinsiyyətə keçid prosesini tamamladıqdan sonra atası ilə uzaq münasibət saxlamağa başlayıb. Mask öz qızını ”kommunist” adlandırsa da, onların fikir ayrılıqları mediada geniş işıqlandırılıb.

**Turan**

## Dualar diləyir

“Survivor” iştirakçısının
14 yaşlı qızı 8-ci mərtəbədən yıxılıb



**”Survivor 2019” yarışmasının iştirakçısı olan milli güləşçi Okay Köksalın 14 yaşlı qızı Azra 8-ci mərtəbədən yıxılıb.**

Hadisə sosial media hesabından açıqlanıb.

”Şərq” xəbər verir ki, ”Survivor 2019” yarışmasının iştirakçısı olan milli güləşçi Okay Köksalın qızı bədbəxt hadisə nəticəsində 8-ci mərtəbədən yıxılıb. 14 yaşlı Azranın reanimasiyada müalicəsinin davam etdiyi öyrənilib.

Bədbəxt hadisəni sosial media hesabından açıqlayan Hakan Hatipoğlu; ”Survivor”da qızı Azraya olan sevgisi ilə qatıldığı il hamımızın beynimizə həkk olunmuş qardaşımız Okayın qızı qəza nəticəsində 8-ci mərtəbədən yıxılıb və reanimasiyadadır. Bayaq danışdım və dualar diləyir. ”Əlimizdən ancaq bu gəlir” deyəndə boğazım qurudu.

Bunu oxuyan hər kəsdən, bu gözəl qardaşımız üçün dua istəyirəm. Köksal ailəsinin Allah yardımçısı olsun. İnşallah bu hadisə sağ-salamat keçər”.

**Turan**

## Bu ölkə 2024-cü ildə rekord sayda turist qəbul edib



**Bu ilin 11 ayı ərzində Mərakeş ötən ildəki ümumi turist sayını üstələyərək rekord sayda turist qəbul edib.**

Azərtac xəbər verir ki, turizm Mərakeşin ümumi daxili məhsulunun təxminən 7 faizini təmin edir, əsas iş yerləri və xarici valyuta mənbəyidir.

Mərakeşin Turizm Nazirliyinin noyabr ayına olan məlumatına görə, keçən ilin eyni dövrü ilə müqayisədə turistlərin sayı 20 faiz artıb.

Rəsmi məlumatlara görə, yanvar-oktyabr aylarında turizm gəlirləri 9,3 faiz artaraq 9,72 milyard ABŞ dollar təşkil edib.

Mərakeş 2026-cı ilə qədər 17,5 milyon, İspaniya və Portuqaliya ilə birlikdə dünya çempionatına ev sahibliyi edəcəyi 2030-cu ilə qədər isə 26 milyon turist cəlb etməyi planlaşdırır.

## Hollivud ulduzunun görünüşü təəccübləndirdi



**Hollivud ulduzu Amanda Bayns Malibuda paparassilərin obyektivinə tuş gəlib.**

Axşam.az xəbər verir ki, hazırda manikür ustası kimi fəaliyyət göstərən 38 yaşlı aktrisanın görünüşü izləyiciləri təəccübləndirib.

Qeyd edək ki, 2013-cü ildə Amandanın psixi problemlərinin olduğu ortaya çıxıb. Bir dəfə qonşuların evində avtomobili və öz itini yandırmağa çalışan aktrisa psixiatriya klinikasında müalicə alıb. Aktrisa martın sonunda Los-Anceles küçələrində çılpaq gəzdiyi üçün həbs olunmuş və daha sonra yenidən xəstəxanaya yerləşdirilmişdi.



# 2025-ci ilə hazır olun!

25 üsul həyatınızı tamamilə dəyişəcək

**Sağlam bədənə sahib olmaq üçün sağlam həyat tərzi vərdişlərini inkişaf etdirməlisiniz. Daha sağlam 2025-ci il üçün praktiki məsləhətlərə günəş işığına məruz qalmanın optimallaşdırılması, kofeinin gecikdirilməsi, səhər yuxusuna üstünlük verilməsi və diqqətli nəmləndirmə daxildir.**

Bütün qidalara diqqət yetirin, stressi idarə edin, yuxuya üstünlük verin və stressi azaldın. Maraqlı fəaliyyətlər, aralıq oruc və yaxşı duruşla beyin sağlamlığınızı artırın. ”Şərq” həyatınızı dəyişdirəcək və 2025-ci ildə daha sağlam bədənə sahib olmanıza kömək edəcək məsləhətləri təqdim edir.

Bugünkü sürətlə inkişaf edən mühitdə sağlamlığa nail olmaq çox vaxt çətin görünə bilər. Gündəlik həyatın tələbləri tez-tez yorğunluq və stressə səbəb olur, balanslaşdırılmış həyat tərzinin qorunmasında sağlamlığın və özünə qulluqun vacibliyini vurğulayır.

Daha yaxşı sağlamlığa doğru səyahətinizi dəstəkləmək üçün 2025-ci il üçün ümumi rifahınızı yaxşılaşdırmaq və daha sağlam, daha dolğun bir il yaratmaq üçün sizə güc verəcək 25 yolu tərtib etdik.

**1. Sabah günəşindən faydalanın**

Səhər günəş işığına üstünlük verin. Təbii işıq zehni aydınlığı artırır, gün ərzində əhvali-ruhiyyəni və diqqəti yaxşılaşdırır, eyni zamanda gecə yuxuya kömək edir. Günəş şüalarını qucaqlamaq, qarşıdakı gün üçün müsbət bir ton təyin edə bilər.

**2- Kofein qəbulu ilə bağlı diqqətli olun**

Kofein qəbulunu oyandıqdan sonra iki saat gecikdirin, ideal olaraq ilk yeməkdən sonra. Bu təcrübə günün daha sonra enerji düşməsinin qarşısını almağa kömək edir və kortizol və adenozin səviyyələrinin təbii tənzimlənməsini dəstəkləyir.

**3 - Sabah kardio**

Gün ərzində yağ yanmasını və davamlı enerji səviyyələrini dəstəkləmək üçün səhər ürək-damar məşqləri edin. Bədən istiliyiniz və gücünüz ən yüksək həddə çatdıqda, müqavimət məşqlərini sonraya saxlayın.





**4 - Səhər suyunuzda dəniz duzu**

Səhər suyunuza bir çimdik əsl dəniz duzu əlavə edin. Bu sadə əlavə bədəninizi nəmləndirməyə və əsas mineralları və elektrolitləri doldurmağa kömək edərək günə enerjili bir başlanğıc təmin edir.

*(Davamı səh: 7-də)*

**Turan**




## 40 yaşdan kiçik kişiləri hədəf alır



**Alimlər xəbərdarlıq ediblər ki, 40 yaşdan kiçik kişilər arasında insult halları artmaqdadır. Mütəxəssislərin fikrincə, bu artımın ən böyük səbəbləri arasında qeyri-sağlam qidalanma vərdişləri, həddindən artıq spirt istehlakı və stress var.**

”Şərq” xəbər verir ki, Britaniya Milli Səhiyyə Xidmətinin məlumatlarının təhlili göstərdi ki, 40 yaşdan kiçik kişilərdə insult nisbəti son iki onillikdə demək olar ki, dörddə bir artıb. Eyni yaşda olan qadınlarda artımın cəmi bir faiz olduğu müşahidə edilib.

Beyin hüceyrələrinin ölümünə səbəb olan beyinə qan axını kəsildikdə insult baş verir. İnsultun ən çox görülən iki səbəbi beyni qanla təmin edən damarların tıxanması (işemik insult) və qan damarının partlaması nəticəsində beyinə qan sızmasıdır (hemorragik insult).

İnsult reabilitasiyası mütəxəssisi Karolina Fransen gənc yaşlarda insult hallarının qeyri-kafi qidalanma, oturaq həyat tərzi, siqaret çəkmə və həddindən artıq spirtli içki qəbulu kimi faktorlar səbəbindən baş verdiyini bildirib. O, həmçinin bu amillərin insult yaradan yüksək təzyiqə səbəb olduğunu da bildirib.

Mövcud məlumatlara görə, son illərdə spirtli içkilərdən istifadə nisbətləri azalsa da, son 5 ildə alkoqolla əlaqəli xəstəliklərdən ölən kişilərin sayı üçdə bir artıb. Həddindən artıq spirt istehlakı qan damarlarının daralması və laxtalanma riskini artıra bilər.

İnsult Dərnəyinin baş direktoru Juliet Bouverie insult hadisələrinin artmasının xüsusilə orta yaşlı insanlar arasında əhəmiyyətli bir problemə çevrildiyini vurğuladı.

Dr. David Hargroves insult keçirən bir insanın hər dəqiqə təxminən iki milyon beyin hüceyrəsini itirdiyini və erkən diaqnozun çox vacib olduğunu vurğulayıb.

Son 20 ildə bütün yaş qruplarında insult səbəbilə xəstəxanaya yerləşdirilmələr 28 faiz artaraq 87 069-dan 111 137-yə yüksəlib.

İnsult əlamətləri qəfil baş verir və təcili müdaxilə tələb edir. Bu simptomlar baş verdikdə dərhal həkimə müraciət edilərsə, insultun qarşısını almaq olar. Zaman insult keçirən bir insan üçün çox vacibdir.

**Turan**

## Qəhvə içmək ömrü uzadır

Alimlər aşkar ediblər



**Yeni bir araşdırma, qəhvənin bir çox fayda gətirə biləcəyini və hətta daha uzun, daha sağlam həyat şansı verdiyini sübut etdi.**

”Şərq” xəbər verir ki, Portuqaliyadakı Koimbra Universitetindən bir qrup Avropa, Amerika, Avstraliya və Asiyadan olan nümayəndə 85 əvvəlki araşdırmanı araşdırdı və qəhvənin ölüm nisbətləri və sağlamlıq göstəriciləri ilə əlaqəsini təhlil etdi.

Ümumilikdə təhlillər göstərir ki, gündə təxminən üç stəkan qəhvə içmək orta hesabla insanın ömrünü əlavə 1,84 il uzadır və müntəzəm qəhvə istehlakı ”sağlam ömür uzunluğu” ilə əlaqələndirilir ki, bu da ciddi xəstəliklərdən təmizlənmiş ömür uzunluğudur. Koimbra Universitetindən nevroloq Rodriqo Cunha deyir: ”Ənənəvi klinik tövsiyələr bəzən qəhvənin sağlam qocalmadakı rolunu görməzlikdən gəlir. Bizim araşdırmamız vurğulayır ki, müntəzəm və orta səviyyədə qəhvə istehlakı yaşlandıqca təbii olaraq yavaşlayan və ya nasazlıq göstərən bioloji mexanizmlərə qarşı qoruyucu rol oynayır. Bu, müxtəlif potensial sağlamlıq faydaları açır”. Araşdırma ”Aging Research Reviews” jurnalında dərc olunub.

**Turan**

## Araqla kabab yeyən kişiləri nə gözləyir?

Qastoenteroloq bu cür qidalanmağın xərçəng yarada biləcəyini deyir



**Kömürdə qızardılmış yeməklə alkoqol içmək sağlamlıqda ciddi problemlərə yol açır.**

”Medicina” xəbər verir ki, qastoenteroloq Nataliya Panina bu cür qidalanmağın xərçəng yarada biləcəyini deyir.

”Kəskin pankreatit hətta 80 qram təmiz etanoldan da inkişaf edə bilər. Bu 150 ml araq, 1 litr pivə deməkdir. Nə qədər doza yüksəkdirsə, xəstəlik riski bir o qədər çoxdur.

Spirtli içki mədə və mədəaltı vəzin qan dövranını pozur, nəticədə sfinkteri spazmlaşdırır, bu zaman öd kisəsindən sintez olunan fermentlər azalır. Yüksək konsentrasiyada fermentin toplanması və onların çıxış yolu tapmaması səbəbindən mədəaltı vəzin hüceyrələri ölür. Hətta bu proses daim olarsa, nekroz, vəzin çürüməsi baş verə bilər.

Xüsusən qazlı alkoqollar təhlükəli hesab edilir: şampan, pivə, qarışıq içkilər, şirin çaxır.

**Pankreatitin simptomları:**

- Sol qabırğaaltında ağrı
- Kürəyə yayılan bıçaq kəsirmiş kimi ağrı
- Ürəkbulanma
- İştahsızlıq, arıqlama
- Qarında şişkinlik
- Yorğunluq, zəiflik
- Depressiya
- İshal